RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 223 (9102) CÜMƏ AXŞAMI, 13 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri

## Heydər Əliyevin xatirəsinə dərin ehtiram





2-3

## Bişkekdə Nizami Gəncəvi adına məktəbin açılışı olub





4

## Dövlət başçıları mədəni proqramda iştirak ediblər



4

## Səfər başa çatdı



4

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana işgüzar səfəri

## Hava limanında qarşılanma



5

## Pakistan hər zaman Azərbaycanı dəstəkləyir



5

## Müstəqil siyasət yeritmək qüdrəti

### Milli ideologiyanın əsas təməl prinsipi müstəqil dövlətçilik kursudur

Azərbaycan tarixinin ən çətin, ən məsuliyyətli dövründə ölkə rəhbərliyinə gələn cənab İlham Əliyev yarımçıq işləri başa çatdırmaqla yanaşı, ölkənin qarşısında duran və dövrün çağırışlarından irəli gələn bir-birindən məsul, gərəkli və təxirəsalınmaz vəzifələri yerinə yetirməli oldu!

Xoşbəxtlikdən, bunların hamısını uğurla bacardı, Ulu Öndərimizlə bərabər, Azərbaycan xalqının da etibar və etimadını şərəflə doğrultdu.

İlham Əliyev ölkəyə rəhbərliyinin ilk günündən Azərbaycan xalqının və dövlətinin maraqlarına xidmət edən müstəqil siyasət yürütdü.

Bunun üçün iqtisadi müstəqilliyə nail oldu, transmilli layihələri gerçəkləşdirdi, Azərbaycanı logistika mərkəzinə çevirdi, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin işə düşməsini təmin etdi.

Beləliklə, tarixinin ən qüdrətli Azərbaycanını yaratdı!

İlham Əliyev ölkəyə rəhbərliyinin ilk günündən Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyünün qorunması şərtilə həllini qarşıya məqsəd qoydu.



6

## Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri

# Heydər Əliyevin xatirəsinə dərin ehtiram

### Bişkekdə Heydər Əliyev adına Məktəb-Gimnaziya Təhsil-Tərbiyə Kompleksinin açılışı olub




**Oktyabrın 12-də Bişkekdə Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya Təhsil-Tərbiyə Kompleksinin açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov açılış mərasimində iştirak ediblər.

Dövlət başçıları açılış mərasimində çıxış ediblər.

## Prezident Sadır Japarovun çıxışı

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli qonaqlar, əziz dostlar.

Biz bu gün Azərbaycanın Ulu Öndəri Heydər Əliyev adına Ümumtəhsil Məktəbinin təntənəli açılış mərasimində iştirak edirik.

Qırğızıstanda bu məktəbin açılışı ikitərəfli münasibətlərdə əlamətdar hadisədir və bizim xalqların möhkəm dostluğuna, ölkələrimiz arasında əsası beynəlxalq miqyaslı tarixi şəxsiyyət, Azərbaycanın Ümummilli Lideri hörmətli Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulmuş strateji əməkdaşlığa dəlalət edir.

Xüsusi vurğulamaq istəyirəm ki, məktəbə Heydər Əliyevin adının verilməsi bizim üçün böyük şərəfdir, çünki bu böyük şəxsiyyətdə təkcə Azərbaycan xalqının ümidləri və istəkləri cəmlənməyib. Tutduğu vəzifədən asılı olmayaraq - respublikanın Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsində işləyərkən, yaxud da özünün kiçik vətəni - Naxçıvanda olarkən Heydər Əliyev öz dövrünün görkəmli nümayəndəsi, incə və dərin düşünən mütəfəkkiri, böyükürəkli insanı olub.

Həmçinin xatırlatmaq istəyirəm ki, Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü olanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini işləyəndə Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən vacib sahələrinə rəhbərlik edib.

Onun olduqca zəngin siyasi və dövlətçilik təcrübəsi, xalqın mənafeyinin müdafiəsində qətiyyəti və prinsipiallığı, müdrikliyi və yüksək insani keyfiyyətləri haqlı olaraq ona Azərbaycanın hüdudlarından kənarda da hörmət qazandırıb.

Mən ümidvar olduğumu bildirirəm ki, gələcəkdə bu məktəbdən Heydər Əliyev kimi şəxsiyyətlər çıxacaq. Heç bir şübhə yoxdur ki, bizim gənc soydaşlarımız qardaş xalqlarımız və ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəm körpüsünə çevriləcəklər. Gənclərə gözəl təhsil, tərbiyə almağı, tələbedilən olmağı, Qırğızıstan və Azərbaycan arasında dostluğun və əməkdaşlığın möhkəmləndirilməsi işinə öz töhfələrini verməyi arzulayıram.

Heydər Əliyev dediyi kimi: "Bizim cəmiyyətin gələcək tərəqqisi bu gün gənclərimizə nəyi və necə öyrətməyimizdən çox asılı olacaq". Qeyd etmək lazımdır ki, gənc nəslin tərbiyəsi daim diqqət mərkəzimizdədir və bu təbiidir, çünki istənilən ölkənin bu günü və gələcəyi keyfiyyətli təhsillə, əldə edilmiş biliyi cəmiyyətin faydası üçün tətbiq etmək bacarığı ilə bilavasitə bağlıdır. Əminəm ki, bu gözəl məktəbin divarları arasında uşaqlar keyfiyyətli təhsil, vətənpərvər və işinin peşəkarı kimi tərbiyə alacaqlar.

Hörmətli İlham Heydər oğlu, əziz dostlar, qeyd etmək istəyirəm ki, biz Azərbaycan xalqının görkəmli mütəfəkkiri və şairi Nizami Gəncəvinin adı verilmiş məktəbin açılışında da iştirak edəcəyik.

XII əsrdə Nizami təxəllüsü ilə yazmış bu məşhur şairin qoyduğu zəngin irs təkcə Azərbaycan xalqını zənginləşdirməyib, eyni zamanda əminəm ki, bütövlükdə bəşəriyyətin ədəbi xəzinəsinə qızıl hərflərlə həkk olunub.

Nizaminin yazdığı "Sirlər xəzinəsi", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə", "Xosrov və Şirin" poemaları, çoxsaylı şeirləri Orta əsrlərdə Yaxın Şərqdə və Mərkəzi Asiyada ədəbiyyatın gələcək inkişafında dərin iz qoyub.

Əziz dostlar, inanıram ki, Heydər Əliyev adına və Nizami Gəncəvi adına Ümumtəhsil məktəbləri Qırğızıstan və Azərbaycan arasında əməkdaşlıq körpülərinə və dostluq mərkəzlərinə çevriləcək, mədəni-humanitar və təhsil sahələrində əməkdaşlığın dərinləşməsinə və genişlənməsinə layiqli töhfəsini verəcək.

Hörmətli İlham Heydər oğlu.

Əziz dostlar.

Sonda qeyd etmək istəyirəm, sevindirici haldır ki, bu il Qırğız Respublikası və Azərbaycan Respublikası arasında münasibətlər fəallaşıb və strateji tərəfdaşlığın yeni səviyyəsinə yüksəlib.

Əziz İlham Heydər oğlu, bütün bu nailiyyətlər Sizin şəxsi diqqətiniz və bütün komandanızın fəal işi olmadan mümkün deyildi.

Bizim azərbaycanlı dostlarımıza səmimi təşəkkürümü bildirirəm.

İki gözəl məktəbin kollektivlərinə böyük nailiyyətlər və uğurlar, iki qardaş ölkələrimizin xalqlarına isə rifah və firavanlıq arzu edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

## Prezident İlham Əliyevin çıxışı



- Hörmətli Sadır Nurqojoyeviç, əziz dostlar, əziz müəllimlər, məktəbin şagirdləri.

İlk növbədə Qırğızıstan Prezidentinə bu məktəbə Azərbaycanın görkəmli oğlu Heydər Əliyevin adının verilməsi qərarına görə təşəkkürümü bildirmək istərdim. Bu, Bişkekin ən böyük məktəblərindən biridir. Biz bunu xalqlarımız arasında dostluğun, qardaşlığın rəmzi, Heydər Əliyevin xatirəsinə ehtiram kimi dəyərləndiririk. Sadır Nurqojoyeviçin də qeyd etdiyi kimi, bu gün biz daha bir məktəbi, Azərbaycanın digər görkəmli oğlu, Azərbaycan xalqının fəxri olan şairi, mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyacaq məktəbi də ziyarət edəcəyik. Bu əlamətdar hadisələr qardaş ölkələrimiz arasında münasibətlərin xarakterini və ruhunu əks etdirir.

Dünən biz Qırğızıstan-Azərbaycan Dostluq parkının açılışında iştirak etdik. Bu park gözəl müasir istirahət mərkəzi olmaqla yanaşı, xalqlarımızın qardaşlığını da əks etdirir. Bu gün bizim yaşadığımız bu əlamətdar hadisələr xalqlarımızın yaddaşında uzun illər dərin iz buraxacaq. Əminəm ki, ölkələrimiz arasında qardaşlıq münasibətləri mənim dövlət səfərimin nəticələrinə görə yeni dinamika, yeni stimul alacaq.

Qırğızıstan Prezidentinin vurğuladığı kimi, Heydər Əliyev tarixdə dərin iz buraxan görkəmli şəxsiyyətdir. O, iş yerindən və ictimai-siyasi quruluş formasından asılı olmayaraq, həmişə - istər sovet dövründə Azərbaycanın rəhbəri olaraq, Azərbaycan Respublikasını sosial-iqtisadi inkişaf üzrə son yerlərdən keçmiş SSRİ-nin qabaqcıl respublikaları sırasına çıxaranda, istər SSRİ-nin iqtisadiyyat, sənaye potensialının nəhəng istiqamətlərinə rəhbərlik edəndə, istər hökumət sədrinin birinci müavini olduğu vaxtlarda, istərsə də xalqın tələbi ilə gənc Azərbaycan Respublikasını iflasa uğramaqdan xilas etməyə çağırıldığı vaxt, gənc Azərbaycan dövləti üçün ən çətin dövrdə ona rəhbərlik edəndə Azərbaycanın maraqlarını müdafiə edib.

Biz uçurum kənarında idik, qonşu ölkənin işğal, hərbi təcavüzü nəticəsində təkcə əraziləri itirmirdik, həm də hərc-mərclik və qardaş qırğını, vətəndaş müharibəsi faciəsi ilə üz-üzə idik. Ən ağır müharibə vətəndaş müharibəsidir. Təəssüf ki, Azərbaycan xalqı bunun acısını çəkib. Yalnız Heydər Əliyevin qətiyyəti və Azərbaycan xalqının ona inamı sayəsində o, qardaş qırğınını dayandırdı, Azərbaycanın iflasa sürüklənməsinin, gənc respublikamızın parçalanmasının qarşısını aldı, Azərbaycanı inkişaf yoluna çıxardı, sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsinə, investisiyaların cəlbinə, müasir Azərbaycan Ordusunun təməlini qoymağa nail oldu. Bu səbəbdən də biz deyəndə ki, bugünkü Azərbaycan Heydər Əliyevin əsəridir, biz tamamilə haqlıyıq. Biz onun davamçılarıyıq, əlbəttə, vəziyyətin spesifikliyi nəzərə alınmaqla, dəyişən dünya nəzərə alınmaqla, Azərbaycanın müasir imkanları nəzərə alınmaqla və qarşımızda duran çağırışlar nəzərə alınmaqla onun yolu ilə gedirik. Onun bizə etdiyi vəsiyyətlərdən biri ərazi bütövlüyünün bərpası idi ki, biz bunu iki il əvvəl şərəflə yerinə yetirmişik.

Yəqin, hər bir uşağa, hər bir oğlana, qıza, yeniyetməyə həm evdə, həm də məktəbdə deyilir ki, onlar yaxşı oxusunlar. Yəqin, uşaqlara bunu dəfələrlə deyiblər, ola bilər onlar bundan yorulublar. Lakin, əslində, bu, sizi həmişə səslədiyimizdir, çünki bu, gələcəyə yoldur. Bilik, təhsil - bu, o yoldur ki, sizə cəmiyyətdə layiqli yer tutmaq və dövlətinizin möhkəmləndirilməsinə töhfə vermək fürsəti yaradır. Fikrimcə, yaxşı oxumaq üçün hər cür öyüd-nəsihətdənsə, gənc nəslə örnək daha çox təsir göstərir. Mən Heydər Əliyevi, onun orta təhsil haqqında şəhadətnaməsini nümunə göstərə bilərəm. O, azərbaycanlı məktəblilər üçün örnəkdir. Orada bir dənə də olsun "dörd" yoxdur, bütün qiymətlər "beş"dir. Mən bilmirəm, Qırğızıstanda hansı bal sistemi mövcuddur, Azərbaycanda o, dəyişdirilib. Lakin sovet dövründə "beş" ən yüksək qiymət idi. Bax, o, ən kiçik yaşlarından - həm məktəbdə, daha sonra institutda əla oxuyub. O, yerinə yetirilməli olduğu hər bir işə belə tam məsuliyyətlə yanaşıb. Onu da deməliyəm ki, azərbaycanlıların müasir nəslinin tərbiyəsində Heydər Əliyevin rolu öz mənbəyini hələ sovet vaxtlarından götürür. O vaxt Azərbaycan keçmiş SSRİ-də yeganə respublika idi ki, Heydər Əliyevin təkidi ilə minə yaxın azərbaycanlı gənc oğlan və qızı SSRİ-nin ali məktəblərinə göndərmək hüququna malik idi. Bu gənclər belə adlandırılan müsabiqədənkənar qəbuldan keçirdilər. Yəni onlar Bakıda imtahan verir, SSRİ-nin aparıcı ali məktəblərinə yollanırdılar. Bununla da kadr potensialı yaranırdı ki, bu gün Azərbaycanda ona tələbat olduqca çoxdur. Sizin diqqətinizə onu da çatdırmaq istəyirəm ki, Heydər Əliyev tərəfindən əsası qoyulan hərbi quruculuq işi də bu gün bizə öz ərazilərimizi uğurla müdafiə etmək imkanı verir. Məhz onun qərarı ilə 1970-ci illərdə Bakıda general Cəmşid Naxçıvanski adına uşaqları hərbi xidmətə hazırlayan məktəb yaradıldı. Bu, Heydər Əliyevin uzaqgörənliyi, gələcəyə istiqamətlənən fəaliyyəti idi. Sanki o, qabaqcadan görürdü ki, Azərbaycan gözəl bir gündə müstəqil dövlətə çevriləcək, bizə ordu lazım olacaq, bizə mütəxəssislər lazım olacaq. Belə də oldu və biz hər bir situasiyaya hazır olmalıyıq.

Mən Heydər Əliyevin xatirəsinə bu cür ehtirama görə Qırğızıstan Prezidentinə, qardaş qırğız xalqına bir daha təşəkkür etmək istərdim. Həmçinin çıxışımın sonunda Heydər Əliyev adına məktəbin və Nizami Gəncəvi adına məktəbin müəllim və şagirdlərini Azərbaycana dəvət etmək istərdim. İndi mənim tərəfimdən müvafiq göstərişlər verilir. Mən sizi yaxın tətillərdə dəvət edirəm. Biz sizin səfərinizi, Bakıda, arzulasanız Azərbaycanın digər yerlərində qalmağınızı təşkil edəcəyik. Fikrimcə, bütövlükdə bizim tədris müəssisələri ilə belə münasibətlərin, əlaqələrin yaradılması üzrə işlərə artıq indi başlamaq lazımdır. Bu bizim gəncləri əməkdaşlıq, qardaşlıq, dostluq ruhunda tərbiyə edəcək. Bu bizi qarşılıqlı zənginləşdirəcək. Bütün Azərbaycan xalqına bugünkü belə gözəl hədiyyənizə görə təşəkkür edirəm. Qardaş Qırğızıstan xalqına sülh, firavanlıq arzulayıram. Sağ olun.

*Ardı 3-cü səh.*

**Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri**

# Heydər Əliyevin xatirəsinə dərin ehtiram

## Bişkekdə Heydər Əliyev adına Məktəb-Gimnaziya Təhsil-Tərbiyə Kompleksinin açılışı olub










*Əvvəli 2-ci səh.*

Sonra dövlət başçıları məktəblə tanış oldular.

Məlumat verildi ki, Heydər Əliyev adına 20 nömrəli Məktəb-Gimnaziya Kompleksində tədris ikinövbəlidir.

Bildirildi ki, məktəb binasında sinif otaqları, zəngin fonda malik kitabxana, 2 akt zalı, yeməkxana, idman zalları, basketbol, voleybol, futbol meydançaları, xoreoqrafiya zalları, tibb məntəqələri, estetik studiyalar var.



## Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri

# Bişkekdə Nizami Gəncəvi adına məktəbin açılışı olub







**Oktyabrın 12-də Bişkekdə Nizami Gəncəvi adına 103 saylı məktəbin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov açılış mərasimində iştirak ediblər.

Dövlət başçıları məktəbin rəmzi açılışını bildirən lenti kəsdilər.

Sonra Prezident İlham Əliyev və Prezident Sadır Japarov məktəblə tanış oldular.

Məlumat verildi ki, Nizami Gəncəvi adına 103 saylı məktəbin ərazisi 6 hektardan çoxdur. Məktəb binasında 30 sinif otağı, oxu zalı, kitabxana, informatika, biologiya, kimya, coğrafiya, texnologiya, tarix kabinələri, idman zalı, 240 yerlik akt zalı var. Bundan əlavə, məktəbin həyətində tennis kortu, basketbol, voleybol və futbol meydançaları yaradılıb.

Bildirildi ki, məktəbdə şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmaq, həmçinin elmin sirlərinə yiyələnmək üçün hərtərəfli şərait yaradılıb.





# Dövlət başçıları mədəni proqramda iştirak ediblər





**Oktyabrın 12-də Bişkekdəki "Ala-Arça" Dövlət Təbiət Parkında mədəni proqram təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov tədbirdə iştirak ediblər.

Mədəni proqramda qırğız xalqının milli adət və ənənələri geniş nümayiş olundu. Qırğız sənətkarları buradakı xiyabanda Azərbaycanın və Qırğızıstanın dövlət başçılarına əl işlərini, milli xalçaları - "Şırdak"ı təqdim etdilər. Dövlət başçıları milli xalçalar istehsal edilən emalatxanalarla tanış oldular. Burada qırğız xalqının milli mətbəxindən nümunələr də təqdim edildi.

Prezidentlər həmçinin milli geyim kolleksiyalarından ibarət sərgiyə baxdılar.

Dövlət başçılarına ənənəvi "Salbuurun" ovunun elementləri də nümayiş etdirildi.





# Səfər başa çatdı





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına dövlət səfəri oktyabrın 12-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Bişkek şəhərinin "Manas" Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi Qırğızıstan Prezidenti Sadır Japarov yola saldı.

# Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana işgüzar səfəri

## Hava limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısında və MDB Dövlət Başçılarının iclasında iştirak etmək üçün oktyabrın 12-də Qazaxıstan Respublikasına işgüzar səfər edib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Nursultan Nazarbayev adına Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Qazaxıstanın Baş naziri Əlixan Smailov və digər rəsmi şəxslər qarşıladılar.

## Pakistan hər zaman Azərbaycanı dəstəkləyir



**Oktyabrın 12-də Qazaxıstana işgüzar səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astanada Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şəriflə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Səmərqənddəki görüşdən bir ay sonra Astanada keçirilən bu görüşün ölkələrimiz arasında əlaqələrin dinamikliyini bir daha göstərdiyini bildirdi.

Dövlətimizin başçısı ilə Səmərqənddəki görüşünü məmnunluqla xatırladan Baş nazir Şahbaz Şərif Prezident İlham Əliyevi Pakistana səfərə dəvət etdi.

Azərbaycan Prezidenti Pakistana səfər etmək niyyətində olduğunu bildirdi və öz növbəsində Baş nazir Şahbaz Şərifi ölkəmizə səfərə dəvət etdi.

Pakistanın Baş naziri Azərbaycana məmnuniyyətlə səfər etmək niyyətində olduğunu dedi.

Şahbaz Şərif Pakistan xalqına göstərdiyi yardıma görə dövlətimizin başçısına təşəkkürünü ifadə etdi və ölkəsinin baş vermiş selin nəticələrindən hələ də əziyyət çəkdiyini bildirdi.

Baş nazir Şahbaz Şərif keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Pakistanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini davamlı şəkildə dəstəklədiyini qeyd etdi.

Dövlətimizin başçısı Pakistanın mövqeyinə görə təşəkkürünü bildirdi, Azərbaycanın da Cəmmu və Kəşmir məsələsində Pakistanın haqlı mövqeyini daim dəstəklədiyini vurğuladı.

Baş nazir Şahbaz Şərif Azərbaycanın bu ədalətli mövqeyinə görə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üzrə ölkəmizin təkliflərini diqqətə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, əgər Ermənistan tərəfindən siyasi iradə nümayiş olunarsa, tezliklə sülh müqaviləsi imzalana bilər.

Görüş əsnasında Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlığının önəmi vurğulandı. Bu çərçivədə əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyəti qeyd olundu.

Eyni zamanda ölkələrimiz arasında hərbi-texniki, ticarət, enerji, kənd təsərrüfatı, nəqliyyat-logistika sahələrində əməkdaşlığın dərinləşdirilməsi məsələlərinə toxunuldu və bu istiqamətdə müzakirələr aparıldı.

## İspaniyanın Kralı Əlahəzrət VI Felipeyə

Əlahəzrət,

İspaniya Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və xoş arzularımı çatdırıram.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost İspaniya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 oktyabr 2022-ci il*

## Azərbaycanın energetika naziri ilə Rusiyanın Baş nazirinin müavini arasında görüş olub

Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov Moskvada "Rusiya Enerji Həftəsi" çərçivəsində Rusiya Federasiyası Baş nazirinin müavini Aleksandr Novakla görüşüb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iki ölkə arasında müttəfiqlik səviyyəsinə yüksələn münasibətlərin bütün sahələrdə inkişafından məmnunluq ifadə edilib. Enerji əməkdaşlığının ikitərəfli münasibətlərdə mühüm rolu qeyd olunub.

Görüşdə Azərbaycan və Rusiya arasında enerji sahəsində ikitərəfli əlaqələrin inkişafına və "OPEC+" formatı çərçivəsində əməkdaşlığa dair məsələlər müzakirə edilib. Elektrik enerjisi, bərpaolunan enerji, eləcə də neft-qaz üzrə enerji əməkdaşlığının genişləndirilməsi perspektivləri nəzərdən keçirilib. Həmçinin "Şimal-Cənub" elektrik enerjisi dəhlizinin yaradılması istiqamətində görülən işlərlə bağlı da fikir mübadiləsi aparılıb.

## Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılaraq, onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

Oktyabrın 12-də baş prokuror Kamran Əliyev Gəncə Şəhər Prokurorluğunun inzibati binasında Gəncə şəhər, Samux, Göygöl, Kəlbəcər və digər rayonlardan olan vətəndaşlarla görüşüb.

Qəbulda iştirak edən 112 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra baş prokuror Samux, Göygöl və Kəlbəcər rayon, eləcə də Gəncə Hərbi prokurorluqlarına gedib, əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

## ABŞ-nin Azərbaycandakı müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb

**Bu il oktyabrın 10-dan 11-nə keçən gecə Azərbaycan Respublikasının Vaşınqtondakı səfirliyinin xidməti avtomobilinə atəş açılıb.**

Baş vermiş hadisə ilə bağlı diplomatik nümayəndəliyimiz tərəfindən dərhal ABŞ-nin müvafiq qurumlarına məlumat verilib, kamera görüntüləri qarşı tərəfə təqdim edilib. Məsələ ilə əlaqədar ABŞ-nin ölkəmizdəki müvəqqəti işlər vəkili oktyabrın 12-də Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb, baş vermiş hadisə ilə bağlı ciddi narahatlığımız və narazılığımız ifadə edilib və Azərbaycan diplomatik nümayəndəliyinin təhlükəsizliyinin təmin edilməsi tələbi qarşı tərəfin diqqətinə çatdırılıb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, son zamanlar xarici ölkələrdəki erməni icmalarının radikal üzvləri tərəfindən Azərbaycanın diplomatik nümayəndəliklərinə qarşı hücumların sistemli xarakter daşıması, o cümlədən Vaşınqton, Paris, Beyrut və digər şəhərlərdə səfirliklərimizə qarşı törədilən hücumlar və vandallıq aktları ciddi narahatlıq doğurur. Xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizin təhlükəsizliyinin təmin edilməsi ev sahibi ölkəsinin beynəlxalq konvensiya ilə üzərinə götürdüyü öhdəliyidir. Bununla bağlı olaraq baş vermiş hər bir insidentlə əlaqədar müvafiq araşdırmanın aparılması və səfirliklərimizin, eləcə də diplomatlarımızın təhlükəsizliyinin lazımi səviyyədə təmin edilməsi tələbini bir daha vurğulayırıq.

"Xatırladaq ki, Ermənistan 1991-ci ildə müstəqilliyini bəyan etdikdən sonra Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək məqsədi ilə terroru dövlət siyasəti vasitəsinə çevirmiş və Azərbaycanın ərazilərinin işğalı prosesində ölkəmizin müxtəlif yerlərində terror vasitələrindən geniş istifadə etmiş, habelə Bakı şəhərində terror aktları törətmişdir. Məlum olduğu kimi, dünyanın müxtəlif ölkələrində çalışan 24 türk diplomat erməni terrorunun qurbanı olmuşdur.

Təəssüflə qeyd edirik ki, nə son günlərdə baş vermiş hücumlar, nə də hələ 2020-ci ildə Avropa paytaxtlarında, habelə Los-Anceles şəhərində Azərbaycanın diplomatik nümayəndəliklərinə, həmçinin azərbaycanlı icma üzvlərinə qarşı edilən hücumlarla bağlı açılan cinayət işləri çərçivəsində heç bir təqsirkar məsuliyyətə cəlb edilməyib. Məhz bu cəzasızlıq radikal erməni qruplarını yeni təxribatlara əl atmağa cəsarətləndirir.

Azərbaycan XİN xarici ölkələrdəki radikal qüvvələrin ölkəmizin diplomatik nümayəndəliklərinə, diplomatlara və onların mülklərinə qarşı yönələn və nifrətə əsaslanan cinayət əməllərini qətiyyətlə pisləyir və müvafiq ölkələrdə bu kimi təxribatların qarşısının alınmasına məsul olan qurumların vəzifələrinə tam məsuliyyətlə yanaşmalarını tələb edir.

Xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizə qarşı edilən hücumlarla bağlı aparılan istintaq tədbirləri XİN-in nəzarətində saxlanılacaq", - deyə məlumatda qeyd olunub.

## Ceyhun Bayramov Astanada MDB Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak edib

Oktyabrın 12-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov MDB Xarici İşlər Nazirləri Şurasının Astana şəhərində keçirilən iclasında iştirak edib. Əvvəlcə məhdud tərkibli formatda işə başlayan iclas daha sonra geniş tərkibdə davam edib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov məhdud tərkibli iclasda çıxış edib. Çıxışında nazir MDB çərçivəsində qarşılıqlı fəaliyyət, habelə regional və beynəlxalq gündəliyin aktual məsələləri üzrə konstruktiv fikir mübadiləsinin aparılması üçün iclasın yüksək səviyyədə təşkilinə görə Qazaxıstan tərəfinə təşəkkürünü ifadə edib. Müasir dünyanın çağırış və təhdidlərinə qarşı birgə fəaliyyətdə təhlükəsizlik məsələlərinin aktuallığının artdığını qeyd edən nazir bununla əlaqədar olaraq MDB çərçivəsində maraqlı tərəflər arasında müxtəlif səviyyələrdə məsləhətləşmələrin aparılmasının əhəmiyyətini qeyd edib. Nazir xüsusilə ölkələr arasında etimad və qarşılıqlı anlayışın möhkəmləndirilməsində ənənəvi olaraq təsirli vasitələrdən sayılan humanitar sahədə əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Nazir Ceyhun Bayramov iclas iştirakçılarını 44 günlük müharibədən sonra bölgədə yaranan yeni reallıqlar fonunda cari vəziyyət barədə, o cümlədən Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəlilədilməsi ilə bağlı məsələlər haqqında məlumatlandırıb. O, münaqişənin bitməsinin, iqtisadi və kommunikasiya əlaqələrinin bərpası yolu ilə bölgədə uzunmüddətli sülh və sabitliyə nail olmaq üçün yeni imkanlar yaratdığını bildirib. Xüsusilə bölgədə tranzit imkanlarının artırılması və ümumilikdə sərmayə mühitinin möhkəmləndirilməsinə xidmət edəcək Zəngəzur dəhlizinin açılışından sonra bölgənin əhəmiyyətinin artacağı diqqətə çatdırılıb. Nazir azad olunmuş ərazilərdə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, keçmiş məcburi köçkünlərin öz evlərinə geri dönüşünü təmin etmək üçün görülən fəal tədbirlərdən bəhs edib. Qısa müddət ərzində görülən işlərin miqyasının Azərbaycanın azad olunmuş torpaqlarını bərpa və inkişaf etdirmək qətiyyətini nümayiş etdirdiyi və bunun da öz növbəsində bölgənin münaqişəsonrası sabitliyinə ciddi töhfə verəcəyi iclas iştirakçılarının diqqətinə çatdırılıb.

Çıxış zamanı həmçinin Ermənistan tərəfindən hələ də üçtərəfli bəyanatların tam icra edilmədiyi, erməni hərbçilərinin Azərbaycan ərazilərindən tam çıxarılmadığı iclas iştirakçılarının diqqətinə çatdırılıb. Habelə Ermənistan tərəfindən təxribatların davam etdirildiyi qeyd edilib, o cümlədən 13-14 sentyabr tarixlərdə sərhəd zonasında Azərbaycan qüvvələrinin təminat yollarının minalanması cəhdi ilə başlanan növbəti hərbi təxribatın çoxsaylı insan itkisinə səbəb olduğu vurğulanıb.

Ermənistanın bu hərəkətlərinin bölgədə sülh və sabitliyin təmin olunması səylərinə xələl gətirdiyi diqqətə çatdırılıb. Nazir Azərbaycan Respublikasının münasibətlərin normallaşması və danışıqlar prosesinin irəli aparılması istiqamətində Ermənistan tərəfindən real addımların atılmasını gözlədiyini və ölkəmizin bu xüsusda səylərini davam etdirməkdə qətiyyətli olduğunu bəyan edib.

## Milli Məclisdə Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin sədri ilə görüş olub

**Oktyabrın 12-də Milli Məclisin Mədəniyyət komitəsinin üzvləri Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin sədri Eliso Bolkvadze ilə görüşüblər.**

Azərbaycan parlamentinin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva qonaqları salamlayaraq Azərbaycan və Gürcüstan arasındakı tarixi dostluq, qardaşlıq və mehriban qonşuluq münasibətlərindən söz açıb. O, Ulu Öndər Heydər Əliyev və onun siyasətini bu gün davam etdirən Prezident İlham Əliyev tərəfindən iki ölkə arasındakı münasibətlərə, əməkdaşlığa, dostluğa hər zaman böyük önəm verildiyini bildirib.

Söhbət zamanı Qənirə Paşayeva Ermənistanın işğalından azad edilmiş Azərbaycan torpaqlarında tarixi, mədəni və dini abidələrin erməni vandalizminə məruz qalmasından danışıb, bu cür vandalizmə qarşı səylərin birləşdirilməsinin əhəmiyyətinə toxunub. O, iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın dərinləşdirilməsi üçün böyük potensialın mövcud olduğunu bildirib, bu istiqamətdə birgə layihələrin həyata keçirilməsi, Azərbaycan və Gürcüstan mədəniyyətlərinin qarşılıqlı təbliği və tanıdılması ilə bağlı qeydlərini diqqətə çatdırıb.

Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin sədri Eliso Bolkvadze Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edərək, ölkələrimiz arasında mədəniyyət sahəsində münasibətlərə diqqət çəkib. Qonaq rəhbərlik etdiyi komitənin mədəni əlaqələrin daha da inkişafında maraqlı olduğunu və Azərbaycanla əməkdaşlığa önəm verdiklərini qeyd edib. O, dünyanın bu gərgin dövründə mədəniyyətlərin sülhə verə biləcəyi töhfələr, bu istiqamətdə UNESCO-nun rolu və Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın nümunəvi fəaliyyəti barədə fikirlərini bölüşüb.

Sonra Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev, deputatlar Razi Nurullayev, Ülviyyə Həmzəyeva, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze mədəniyyətlərin qarşılıqlı təbliği, Azərbaycan və gürcü dillərinin məktəblərdə tədrisi məsələləri, parlamentlərimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi barədə fikirlərini səsləndiriblər.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər də müzakirə olunub.




# Tarixin ən qüdrətli Azərbaycanının və möhtəşəm Zəfərin müəllifi





*"Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik".*

**İlham ƏLİYEV**



# Müstəqil siyasət yeritmək qüdrəti

## Milli ideologiyanın əsas təməl prinsipi müstəqil dövlətçilik kursudur

**Dünyada beş minədək millət və xalq var.**

**Onlardan yalnız 203-ü özünə dövlət qura bilib.**

**Bu dövlətlərin heç də hamısı müstəqil fəaliyyət göstərə bilmir - kimdənsə, hansısa formada asılıdırlar.**

ÇÜNKİ:

- Müstəqil dövlət yaratmaq üçün ərazin, Vətən adını daşıyan torpağın olmalıdır!
- Həmin torpaqdakı insanları yaşatmaq üçün yeraltı və yerüstü sərvətlərə, lazımi imkan və şəraitə malik olmalısan!
- Yaratdığın dövləti yaşatmaq, idarə etmək üçün ağıllı, savadlı, bacarıqlı, vətənpərvər və dövlət idarəçiliyində çalışa bilən övladların olmalıdır.
- Ən nəhayət, müstəqil dövləti qurmağı, yaşatmağı, yüksəltməyi, təlatüm və bəlalardan qorumağı, xalqı ətrafında yumruq kimi birləşdirərək irəli aparmağı bacaran liderin, müdrik və uzaqgörən rəhbərin mövcudluğu da vacib şərtdir.

*Bunlardan hansısa çatmayanda, nə dövlət olur, nə də onun müstəqilliyi və siyasəti.*

❖ ❖ ❖

**Azərbaycan xalqı ilk dəfə müstəqillik arzusunu 28 may 1918-ci ildə həyata keçirdi.**

**Əslində, bu, Azərbaycan adlı müstəqil dövlətin yaradıldığının bəyan edilməsi idi.**

Dövlətçilik təsisatlarını və zəruri strukturları qurmaq, büdcə formalaşdırmaq, xalqın istək və arzularını gerçəkləşdirmək, ölkənin müdafiəsini təşkil etmək və digər təxirəsalınmaz məsələlər öz həllini gözləyirdi.

*Mühüm məqamlardan biri Azərbaycanı müstəqil dövlət kimi dünyaya tanıtmaq və qəbul etdirmək idi!*

Odur ki, Azərbaycan Xalq Cümhuriyyəti əsas diqqətini Paris Sülh Konfransında Azərbaycanın müstəqil dövlət kimi təsdiqinə yönəltmişdi.

**Belə də oldu: Azərbaycan müstəqil dövlət kimi tanındı, amma çox yaşaya bilmədi!**

XI Qızıl ordu Azərbaycanı işğal edərək Rusiyanın tərkibinə qatdı.

Beləliklə, ilk müstəqilliyin ömrü cəmi 23 ay çəkdi.

❖ ❖ ❖

Yetmiş il ömür sürən SSRİ adlı super dövlət 15 müttəfiq respublikadan ibarət idi.

Onların hər birinin ayrıca himni, gerbi, bayrağı və büdcəsi vardı.

**Hamısı da özünü müstəqil sayırdı...**

**Amma "böyük qardaş" - mərkəz nə desəydi, onun sözündən çıxa bilməzdilər.**

Moskva isə sözünü "Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarı" şəklində yerlərə çatdırırdı.

Hər respublika qazandığını "Ümumittifaq fondu"na göndərirdi, fond isə kimə nə qədər məsləhət bilsə, o qədər ayırırdı.

Əslində, "müstəqil dövlət" adlanan subyektin dövlət büdcəsini Moskva müəyyənləşdirirdi.

*Müttəfiq respublikaların hər birinin "Xarici işlər nazirliyi" olsa da, reallıqda formal xarakter daşıyırdı.*

*Bütün xarici siyasət məsələlərini "SSRİ Xarici İşlər Nazirliyi" həyata keçirirdi.*

*"Müstəqil dövlət"lərin öz ordusu ola bilməzdi, çünki SSRİ Silahlı Qüvvələri hamısını "qoruyurdu".*

**Bir sözlə, formal dövlət, formal müstəqillik idi.**

❖ ❖ ❖

Qırmızı imperiya laxlayaraq parçalananda SSRİ-nin çətiri altında yaşayan xalqlar müstəqillik arzularını gerçəkləşdirməyə başladılar.

*Azərbaycanda bu proses çox ağrılı keçdi!*

*Həmin dövrdə ölkəyə başçılıq edən A.Mütəllibov Azərbaycanın müstəqil dövlət kimi yaşayacağını ağlına belə gətirmirdi.*

**Naxçıvanda fəaliyyət göstərən Ulu Öndər Heydər Əliyev muxtar respublikanın müstəqilliyini elan edib dövlət atributlarını qəbul edəndə A.Mütəllibov Azərbaycanın SSRİ-nin tərkibində qalmasına xidmət edən referendum keçirirdi.**

*1991-ci ildə qəbul olunan "Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" isə deklorativ xarakter daşıyırdı.*

**Müstəqil dövlət yaradaraq müstəqil siyasət yürüdülməsi yolunda real və konkret addımlar atılmırdı.**

*Xalq hərəkatının dalğalarında iqtidara gələn AXC-Müsavat cütlüyünün isə siyasətdən xəbəri belə yox idi!*

Onlar "Yakutiyaya bayraq sancmaq"dan danışır, guya "özlərində olan atom bombası" ilə başqalarına hədə-qorxu gəlirdilər.

**Belə ağılsız "siyasətləri" sayəsində ölkəni bir dövlət kimi məhvolma həddinə çatdıraraq "vəzifələrini dondurub" aradan çıxdılar.**

❖ ❖ ❖

**Xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıdan dünyaşöhrətli siyasətçi Heydər Əliyev Azərbaycanı bəlalardan qorumaq, müstəqilliyi qoruyub saxlamaq və reallığa çevirmək üçün çox çalışıb-çarpışmalı oldu.**

*Əvvəlcə Azərbaycanda möhkəm və dönməz sabitlik yaratdı, iki dəfə dövlət çevrilişinə cəhdin qarşısını aldı.*

*Beynəlxalq təşkilatlarla əlaqələr quruldu, Azərbaycan Avropa Şurasına üzv seçildi.*

*Dövlətin iqtisadi gücünün möhkəmləndirilməsi üçün "Əsrin müqaviləsi" neft kontraktı imzalandı, daxili və xarici siyasətin konturları cızıldı.*

**Tale Ulu Öndərimizin düşüncələrini tam reallaşdırmağa imkan vermədi.**

**Ümummilli Liderimiz qalan işləri siyasi varisinə etibar edərək əbədiyyətə qovuşdu.**



*Azərbaycan tarixinin ən çətin, ən məsuliyyətli dövründə ölkə rəhbərliyinə gələn cənab İlham Əliyev yarımçıq işləri başa çatdırmaqla yanaşı, ölkənin qarşısında duran və dövrün çağırışlarından irəli gələn bir-birindən məsul, gərəkli və təxirəsalınmaz vəzifələri yerinə yetirməli oldu!*

**Xoşbəxtlikdən, bunların hamısını uğurla bacardı, Ulu Öndərimizlə bərabər, Azərbaycan xalqının da etibar və etimadını şərəflə doğrultdu.**

❖ ❖ ❖

**İlham Əliyev ölkəyə rəhbərliyinin ilk günündən Azərbaycan xalqının və dövlətinin maraqlarına xidmət edən müstəqil siyasət yürütdü.**

*Bunun üçün iqtisadi müstəqilliyə nail oldu, transmilli layihələri gerçəkləşdirdi, Azərbaycanı logistika mərkəzinə çevirdi, "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin işə düşməsini təmin etdi.*

**Beləliklə, tarixinin ən qüdrətli Azərbaycanını yaratdı!**

**İlham Əliyev ölkəyə rəhbərliyinin ilk günündən Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyünün qorunması şərtilə həllini qarşıya məqsəd qoydu.**

*Yeni vətənpərvər gənclər nəsli tərbiyə etdi, onların iştirakı ilə möhtəşəm ordu yaratdı, ən müasir texnika ilə silahlandırdı, 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu məhv edərək düşmənə kapitulyasiya aktını imzalatdırdı.*

**İlham Əliyev Azərbaycanı müasir, yüksək beynəlxalq imici olan dövlətə çevirmək üçün beynəlxalq qurum və təşkilatlarla müntəzəm iş apardı, hücum diplomatiyasına start verdi, idmanı inkişaf etdirdi, ölkəmizi dünyanı düşündürən problemlərin və çağırışların müzakirə olunduğu beynəlxalq məclislərin keçirildiyi məkana çevirdi.**

*BMT Təhlükəsizlik Şurasının iclaslarına rəhbərlik etdiyi, Qoşulmama Hərəkatına sədrliyi dövründə inkişaf etməkdə olan ölkələrlə bağlı atdığı xeyirxah addımlar, qəbul etdiyi qərarlar ölkəmizə xeyli dost qazandırdı və beynəlxalq təşkilatlarda dəstəyimizi əsaslı şəkildə gücləndirdi.*

❖ ❖ ❖

Siyasət məqsəd və vəzifədən ibarət olur.

Məqsəd strateji hədəf, vəzifə isə ona çatmaq yollarıdır.

Eyni məqsədə müxtəlif yollarla, üsul və vasitələrlə çatmaq mümkündür.

Əsl siyasətçilər ən qısa və optimal yolları tapıb həyata keçirməkdə bir-birilərindən fərqlənirlər.

Təbii ki, daha səmərəli şəkildə və qısa müddətdə məqsədə çatan siyasətçilər, xalqının və dövlətinin maraqlarını daha yaxşı, dolğun təmin edən bacarıqlı və uzaqgörən siyasətçilər, əsl dövlət xadimi sayılırlar.

Vacib bir məqamı da qeyd edək: yalnız real gücə və imkanlara əsaslanan siyasət insanları məqsədə çatdırır!

**Bu gün Avropa və dünya Azərbaycana ciddi ehtiyac duyur, onunla əməkdaşlığa can ataraq müəyyən fayda görür.**

**Bütün bunlar müdrik, düşünülmüş, uzaqgörən və cəsarətli siyasətin bəhrələridir.**

❖ ❖ ❖

*Çex Respublikasının paytaxtı Praqa şəhərində keçirilən Avropa Siyasi Birliyinin ilk Zirvə toplantısında Ermənistan böyük bacısı Fransa, Avropa İttifaqı və digər dostlarının köməyi ilə Azərbaycana təzyiq göstərərək istəklərinin bir qisminə nail olmaq niyyətində idi.*

**Bu dəfə də niyyəti puça çıxdı, Paşinyan boynubükük vəziyyətdə qaldı!**

*Azərbaycan Prezidenti İlham Əliyevin yüksək nüfuzu, şəxsiyyətinə göstərilən dərin hörmət, mühüm məsələlərin həllində mövqeyinin və rəyinin nəzərə alınması, habelə qətiyyətli mövqeyi və möhkəm iradəsi qarşısında təkcə Ermənistan tərəfi deyil, onun havadarları və dostları da geri çəkilmək məcburiyyətində qaldılar.*

**İlham Əliyev bütün görüş və tədbirlərdə nümayiş etdirdiyi cəsarətli və dönməz iradəsinin arxasında qüdrətli Azərbaycanın iqtisadi gücü, Cənubi Qafqazda tutduğu mühüm mövqe, dünya və Avropa üçün vazkeçilməz gərəkliliyi, dövlət başçısının qətiyyətli, müdrik və uzaqgörən siyasəti dayanır.**

Cənab İlham Əliyevin zamanın sınaqlarından çıxmış müdrik deyimi yada düşür: *"Müstəqillik sadəcə olaraq dövlət atributları deyildir. Müstəqillik müstəqil həyatdır, müstəqil siyasətdir, dövlətin və milli maraqların qorunmasıdır".*

*Bütövlükdə siyasət ağıllı, düşünülmüş, uzaqgörən, irəlicədən bütün məqamlar nəzərə alınmış olanda gözlənilən səmərəni verir.*

**Cəsarətli siyasət isə bambaşqadır!**

Burada ağıl da, uzaqgörənlik də, dəqiq hesablamalar da olur.

Amma bütün bunların mayasında özünəinamla yanaşı, iqtisadi imkan və siyasi bəsirət də dayanır!

**Siyasətin cəsarəti onu yeridənin müdrikliyindən və əminliyindən, tutduğu xəttin doğruluğuna sarsılmaz inamından, məxsus olduğu xalq tərəfindən birmənalı şəkildə dəstəklənməsinə arxalanmağından qaynaqlanır.**

**Bu gün Azərbaycan Prezidenti İlham Əliyev düşünülmüş və cəsarətli siyasət yeridən yeni tipli lider kimi tanınır.**

Onu Avropada məşhurlaşdıran və sevdirən də bu siyasətidir!

Dediyinə daim əməl etməsi, sözünü əmələ çevirməsidir!

Belə siyasətçilərə həmişə və hər zaman hörmət edirlər və onunla hesablaşırlar.

❖ ❖ ❖

- Bu gün İlham Əliyev Avropaya qalib dövlətin rəhbəri və müzəffər sərkərdəsi kimi gedir.
- Bu gün İlham Əliyev Avropaya bu qitənin ciddi ehtiyac duyduğu təbii qazın təchizatçısı kimi gedir.
- Bu gün İlham Əliyev Avropaya güclü Azərbaycanın Prezidenti olaraq öz şərtlərini diktə etmək üçün gedir.
- İlham Əliyev bu mövqeyə vaxtında reallaşdırdığı və hazırda işləyən transmilli layihələrin müəllifi və icraçısı kimi nail olub.
- İlham Əliyev bu mövqeyə böyük uzaqgörənliklə, maneələri dəf etməklə rəhbəri olduğu Azərbaycanın vəsaiti hesabına reallaşdırdığı "Cənub qaz dəhlizi", TANAP və TAP-ın sahibi kimi çatıb.

İlham Əliyev bu mövqeyə həm də 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbəsi ilə nail olub!

❖ ❖ ❖

**Əslində, Praqa görüşləri İlham Əliyevin diktə etdiyi şərtlərin təsdiqi ilə başa çatdı:**

- Qəbul edilmiş bəyanatda Azərbaycan və Ermənistan bir-birilərinin ərazi bütövlüyü və suverenliyini tanıdılar, bu xüsusda BMT Nizamnaməsi əsas sənəd kimi götürüldü;
- Sərhədlərin delimitasiyası üzrə komissiyanın iclasının tezliklə keçirilməsi razılaşdırıldı;
- Azərbaycanın etirazı təmin olundu. Belə ki, Aİ və Fransanın birgə sərhəd monitorinq missiyası yalnız Ermənistan ərazisində olacaq, Azərbaycan isə öz maraqlarına uyğun şəkildə missiya ilə əməkdaşlıq edəcəkdir;
- Ən nəhayət, Azərbaycan Ermənistanın və müdafiəçilərinin canfəşanlığını və ümidlərini boşa çıxararaq kapitulyasiya aktındakı bütün bəndlərin məcburən icrasına nail olur.

❖ ❖ ❖

**İlham Əliyevin ölkəyə rəhbərliyinin 19 ilində Azərbaycan möhtəşəm nəticələrə nail olub.**

**Tam müstəqil siyasət yürüdüb!**

*Müstəqil siyasət aparmaq üçün gərək kiminsə qapısını döyərək heç kəsdən heç nə istəməyəsən!*

*Çünki sənə nəsə verəndə öz şərtlərini də qəbul etdirirlər.*

**Düşünülmüş siyasət yeridib!**

*Hər şey hesablanıb, zərgər dəqiqliyi ilə ölçülüb-biçilib, təhdidlər və təhlükələr əvvəlcədən duyularaq qarşısı alınıb, vədəsində qabaqlayıcı işlər görülüb!*

*Belə olmasaydı, hadisələri qabaqlamaq da mümkün deyildi.*

**Cəsarətli siyasət yürüdüb!**

*Bu işdə uzaqgörənliyi və xarizması köməyinə çatıb, daima cəsarətinin arxasında ağıllı tədbiri, diplomatik məharəti və özünəgüvəni dayanıb.*

**Dəyişməz siyasət aparıb!**

*Çünki bütün addımlarında müstəqil dövlətimizin maraq və mənafeyini güdüb, dövləti gücləndirmək, xalqın arzu və istəklərini həyata keçirmək, rifahını yüksəltmək niyyəti dayanıb!*

**Dönməz siyasət yürüdüb!**

*Daim arxasında Azərbaycan xalqının dəstəyini, etimad və etibarını, sevgisini hiss edib!*

*Xalqın milli birliyinə arxalanıb!*

Bütün bunlar müstəqil Azərbaycanımızı möhtəşəm qələbələrə çatdırıb, uğur və nailiyyətlərimiz isə Vətənimizi dünyada hörmət, nüfuz və söz sahibinə çevirib!

**Bəxtiyar SADIQOV**



# Heydər Əliyev ili 2023



**Böyük qayıdışı yaşayırıq…**
**Vətəndə qəriblərimizin yurd həsrətinin sona yetmə anını...**
**İllərdir didərginlik həyatı yaşayan yüz minlərlə vətəndaşımızın məcburi köçkünlük yükündən qurtularaq, vətənli bəxtəvərlərə çevrilmə zamanını…**
**Əzəli torpaqlarımıza əbədi qovuşmanın müqəddəs məqamını…**

# Böyük qayıdışın təməllərini yaradan lider

## Ulu Öndərin ideyalarını İlham Əliyev qətiyyətlə reallığa çevirir

### Arzuların vətən zirvəsi

Düz 30 illik Vətən sınağından sonra, keçmiş məcburi köçkün vətəndaşlarımız Böyük qayıdış adlandırdığımız zirvəyə yetiblər. İllərdir arzularında yaşatdıqları, xəyallarını qurduqları yurda dönüş gerçəkliyinin təsvirəgəlməz sevincini, xoşbəxtliyini yaşayırlar.

Bu insanların Vətənə qayıdışının təməlinin müəllifi Ulu Öndər Heydər Əliyev, bu müqəddəs missiyanı uğurla həyata keçirən isə Prezident İlham Əliyevdir...

Hələ illər öncə, 1994-cü ildə Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən Horadiz əməliyyatı sayəsində Füzuli rayonunun Horadiz qəsəbəsinə doğma sakinlərinin qaytarılması ilə Böyük qayıdışın uğurlu təməlləri atıldı.

Daha sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan 2016-cı ilin şanlı Aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakinləri yurdlarına qovuşdular.

İndi isə, 44 günlük şanlı Vətən müharibəsinin üzərindən heç iki il ötməmiş, Qarabağın və Şərqi Zəngəzurun əzəli sakinləri yurdlarında əbədi yaşamağa dönürlər. Mükəmməl siyasi diplomatiyası, təkrarolunmaz hərbi taktikası sayəsində torpaqlarımızı işğaldan azad edən baş sərkərdə İlham Əliyev, indi də qurucu lider kimi o yerlərdə həyatın yenidən var olması üçün əzmlə çalışır.

### Qaçqın və məcburi köçkün probleminin həlli birnömrəli prioritet elan edildi

"Bu insanların məskunlaşdıqları yerlərdə yaşamaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün bütün imkanlardan istifadə edirik. Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir".

Ümummilli Lider Heydər Əliyev çıxışlarının birində qaçqın və məcburi köçkünlərin problemlərinə toxunaraq həmin insanların ağrılarını dərindən duyduğunu ifadə edərək söyləmişdi bu fikirləri.

Ulu Öndər xalqının düçar olduğu qaçqınlıq, məcburi köçkünlük bəlasını özünün bir nömrəli problemi hesab edirdi. Hakimiyyətə gəldiyi ilk vaxtlardan Heydər Əliyev yurd-yuvasından didərgin salınmış soydaşlarımızın qayğı və problemlərinin həllini dövlətimizin prioritet siyasətinə çevirmişdi.

Qaçqın və məcburi köçkünlərin sosial problemləri daim Ulu Öndəri narahat edirdi və buna görə də o, dəfələrlə çadır şəhərciklərinə yollanır, orada yaşayan insanların şəraitləri ilə şəxsən tanış olur, problemlərinin həlli istiqamətində mümkün olan bütün işləri görürdü. Xüsusilə də bu insanların mənzil-məişət, sosial problemlərinin yüksək səviyyədə həll olunması üçün əlindən gələni edirdi.

Heydər Əliyevin əsasını qoyduğu uğurlu neft strategiyası sayəsində əldə edilən ilk vəsaitin də məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilməsi, eləcə də insanlarımızın acınacaqlı vəziyyətdə yaşamağa məcbur olduğu çadır düşərgələrinin ləğvinə başlanılması buna bariz nümunədir.

2001-ci il sentyabrın 7-də Ulu Öndərin "Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" və 13 may 2002-ci il "Biləsuvar rayonu ərazisində yerləşən beş çadır düşərgəsində məskunlaşmış məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında" fərmanlarına uyğun olaraq, Biləsuvar, Füzuli və Ağdam rayonlarının ərazisində 5081 ailədən ibarət 22800 məcburi köçkün üçün bütün zəruri sosial-texniki infrastrukturu ilə birlikdə 20 qəsəbə salındı və Biləsuvar rayonu ərazisindəki 5 çadır düşərgəsi 2003-cü ilin iyun ayında ləğv edildi.

### Böyük inam

Elə bir əlamətdar gün, bayram olmazdı ki, Heydər Əliyev məcburi köçkünlərin yanında olmasın, onlara mənəvi dəstəyini göstərməsin.

1999-cu ildə Novruz bayramı ərəfəsində Biləsuvardakı çadır düşərgəsində cəbrayıllı məcburi köçkün gənclərin toyunda Ulu Öndərin iştirak etməsi, gənc ailə ilə birgə qol götürüb oynaması xoş xatirə kimi yaddaşlarda silinməz izlər buraxıb.

Hər birimizin televiziya ekranlarından dəfələrlə izlədiyimiz bu səmimi görüntülər, təkcə bir dövlət başçısının xalqının hansısa nümayəndəsinin şad günündə iştirakı deyildi, bu, bir el atasının öz övladları saydığı yurd həsrətli insanların şadlığına ürəkdən sevinib, onlarla birgə bunun xoşbəxtliyini paylaşması idi. Həm də ölkənin ən ali şəxsinin bu iki gəncin timsalında bütün qaçqın və məcburi köçkünlərə qol-qanad gərməsinin, onlara arxa-dayaq olmasının ismarışı idi.

Ulu Öndərin çadır şəhərciklərinə gəlməsi, məcburi köçkünlərlə görüşməsi bu insanlara böyük sevinc bəxş etməklə bərabər, Vətənə qayıdış inamlarını da sönməyə qoymurdu, əksinə, möhkəmləndirirdi. Böyük lider Heydər Əliyev bütün nitqlərində, çıxışlarında, məcburi köçkünlərlə olan söhbətlərində hər zaman bu məsələ ilə bağlı danışır, bir gün mütləq işğal altındakı torpaqlarımızın azad olunacağına və məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıdacağına əminliyini, inamını bildirirdi.

1998-ci il martın 20-də Mərdəkandakı "Abşeron" Sanatoriyasında Novruz bayramı münasibətilə qaçqın və məcburi köçkünlər üçün keçirilən bayram şənliyində Ulu Öndər nitqində bu böyük inamı belə ifadə etmişdi: "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm".

### Azərbaycanda bütün çadır şəhərcikləri ləğv olundu

Fəaliyyətinin ilk dövründən qaçqınların və məcburi köçkünlərin problemlərinin həllini ən başlıca vəzifələrindən biri kimi müəyyənləşdirən Prezident İlham Əliyevin 2003-cü il prezident seçkiləri ərəfəsində proqramının tərkib hissəsi də məhz bu məsələ idi. İlham Əliyev söz vermişdi ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq və cəmi 4 il ərzində, 2007-ci ildə bu böyük hədəfə nail olundu. Həmin vaxta qədər ölkənin demək olar ki, bütün yerlərində çadır şəhərcikləri var idi, köçkünlər çox yararsız vəziyyətdə yaşayırdılar, həmçinin uzun illər vaqonlarda, vaqonların altında məskunlaşmışdılar. 2020-ci ilə qədər ölkədə məcburi köçkünlər üçün 100-dən çox qəsəbə-şəhərcik salındı.

Ötən müddət ərzində Azərbaycanda 300 mindən çox məcburi köçkün mənzillərlə, fərdi evlərlə təmin olundu, həmçinin məcburi köçkünlərin problemləri ardıcıl şəkildə öz həllini tapdı.

2020-ci ilin 28 mayında isə Prezident İlham Əliyev məcburi köçkünlərə 111-ci hədiyyəsini etdi. Bakının Qaradağ rayonunda 1336 məcburi köçkün ailəsi üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışındakı çıxışında isə İlham Əliyev əhəmiyyətli bir məsələyə diqqət çəkdi. Dövlət başçısı vurğuladı ki, bütün Azərbaycan xalqı bilməlidir ki, bu, sizin üçün müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad ediləndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağılmış şəhərlərimizi yenidən quracağıq.

### O gün yetişdi

Dövlət başçısının həmin çıxışının üzərindən cəmi bir neçə ay ötdükdən sonra, 2020-ci il sentyabrın 27-də xalq olaraq arzularımızın gerçəkləşdiyi o qürurverici məqam yetişdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tarixi torpaqlarımıza güclə yiyələnmək istəyən işğalçıları cəmi 44 gün ərzində "dəmir yumruğ"unun zərbəsi ilə qarşısında diz çökdürdü. Azərbaycana zəfər sevinci yaşatdı, doğma yurdundan didərgin düşən yüz minlərlə vətəndaşımızın yurd həsrətinə son qoydu.

Parlaq zəfərlə bitən Vətən müharibəsindən dərhal sonra isə 30 il ərzində erməni barbarlarının dağıdıb viranəyə çevirdiyi yurd yerlərimizdə tikinti-quruculuq işlərinə start verildi. Cəmi iki il əvvələ qədər bir həyat nişanəsi belə tapmaq mümkün olmayan ərazilərimizdə indi həyat yenidən məcrasına qayıdır.

Qarabağ və Şərqi Zəngəzurda müasir infrastruktur qurulur, "ağıllı kənd", "ağıllı şəhər"lər salınır. Artıq bütün şəhərlərin Baş planları da hazırlanıb və təsdiqlənib.

İndi işğaldan azad edilən bölgələrimiz nəhəng tunellərin çəkildiyi, dünya miqyaslı dəhlizlərin salındığı, beynəlxalq hava limanlarının tikildiyi, meqalayihələrin gerçəkləşdirildiyi unikal məkana çevrilib.

İşğaldan azad edilən torpaqlarımızda görülən bütün bu irimiqyaslı işlər Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında həyata keçirilir. Hər zaman dövlət başçısı çıxışlarında bildirir ki, bu istiqamətdə qarşıya qoyulan bütün hədəflər təmin edilir. O cümlədən də 30 il ərzində əziyyət, mənəvi əzab içində yaşamış köçkünlərin qısa müddət ərzində öz doğma torpaqlarına qaytarılması üçün mühüm layihələr gerçəkləşdirilir.

### Xoş çağırışlar

Bu il oktyabrın 5-də Ağdamda baş tutan Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimindəki çıxışında da Prezident İlham Əliyev bir daha bəyan etdi ki, hazırda biz keçmiş məcburi köçkün və qaçqınları öz doğma yurdlarına mümkün qədər tez bir zamanda geri qaytarmaq üçün nəhəng bir çağırışla üz-üzəyik: "Bu gün biz yeni çağırışlarla üzləşirik. Ancaq bunlar xoş çağırışlardır - Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, insanların geri qayıtması və Azərbaycanın hər hansı bölgəsində yaşayan keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması".

Dövlət başçısı onu da vurğuladı ki, baxmayaraq ki, 300 mindən çox məcburi köçkün yeni ev və mənzillərlə təmin edilmişdi, bu mənzillərin açılışı zamanı onlar minnətdarlıqlarını bildirməklə yanaşı, hər dəfə qeyd edirdilər ki, bizi öz torpaqlarımıza qaytarın: "Mən onlara hər dəfə söz verirdim ki, bunu reallaşdıracağam və mən fəxr edirəm ki, biz bunu reallaşdıra bildik və artıq Böyük qayıdış proqramı başlayıb".

Zəfərdən sonra Böyük qayıdışın, vətənə dönüşün ilk "qaranquşlar"ı Zəngilanın Ağalı kəndinin sakinləri oldular. İndi ağalılılar hər açılan günü doğma yurddan xoşbəxtcəsinə salamlayırlar.

Çox tezliklə, şuşalılar, ağdamlılar, laçınlılar, kəlbəcərlilər, ümumiyyətlə, doğma od-ocağından didərgin salınmış bütün keçmiş məcburi köçkünlər də öz dədə-baba torpaqlarına qovuşdurulacaqlar.

Bəli, ata vəsiyyətinə əməl edərək işğal altında qalan torpaqlarımızı azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev, indi Ulu Öndərin vaxtilə bünövrəsini qoyduğu Böyük qayıdış siyasətini müvəffəqiyyətlə reallığa çevirir.

Azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, Azərbaycanın milli maraqlarını təmin etməkdən ötrü gecə-gündüz yorulmadan çalışmış dahi şəxsiyyət Heydər Əliyevin də ruhu bu gün şaddır.

Və elə Heydər Əliyevin 100 illiyi ərəfəsində Azərbaycan xalqının yaşadığı ən qürurlu, ən əlamətdar günlər də Ulu Öndərin yubileyinə möhtəşəm ərməğandır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Heydər Əliyev artıq təməli qoyulmuş BTC-ni necə xilas etdi

## Tikintinin maliyyələşməsi Ulu Öndərin dünyadakı nüfuzu sayəsində həll olundu

**1990-cı illərin ikinci yarısında "Əsrin müqaviləsi" çərçivəsində neft hasilatı artdıqca, mövcud olan kəmərlərdən əlavə daha böyük bir ixrac marşrutuna ehtiyac yaranırdı. Belə bir şəraitdə müəllifi Ümummilli Lider Heydər Əliyev olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin çəkilişi ideyası irəli sürüldü.**

1998-ci il oktyabrın 19-da Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə imzalandı. 1999-cu il noyabrın 18-də İstanbulda ATƏT-in zirvə görüşü zamanı xəttin çəkilişi ilə bağlı növbəti sazişə imza atıldı. Bu sənədə Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və Amerika Birləşmiş Ştatlarının ovaxtkı prezidentləri imzaları ilə təsdiqlədilər.

Bundan əvvəl "Əsrin müqaviləsi"ni xülya adlandıranlar, müxtəlif bəhanələrlə və güclü səylərlə onun baş tutmasına mane olmaq istəyənlər yenidən baş qaldırmışdılar. Bu dəfə hədəfdə BTC idi. Sonralar Ulu Öndər bunu belə xatırlayırdı: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin marşrutunun seçilməsinə müxtəlif maneçiliklər törədildi. Biz şübhə etmirdik ki, bu kəmər Gürcüstandan keçməlidir. Şübhə etmirdik ki, bu böyük neft kəməri məhz Türkiyəyə getməlidir. Xəzərin nefti Türkiyənin Ceyhan limanı vasitəsilə dünya bazarına çıxmalıdır. Amma bəziləri hesab edirdilər ki, kəmər başqa ölkələrdən keçə bilər. Yəni artıq Azərbaycanda, Xəzərin Azərbaycan sektorunda neftin hasil olunmasının reallığını görəndə bəziləri hesab edirdilər ki, bu neft borusu Cənuba gedə bilər, yaxud Şimala gedə bilər, Şərqə gedə bilər. Müxtəlif belə fikirlər, müxtəlif iddialar var idi və getdikcə bunlar güclənirdi. Ancaq biz öz qərarımızda qəti idik. Əvvəldən də biz bunu elan etmişdik ki, kəmər yalnız bu marşrut ilə keçəcəkdir. Bu barədə Azərbaycan, Gürcüstan, Türkiyə arasında qəti razılıq əldə edilmişdi. Demək istəyirəm ki, biz bu layihəni başlayandan indiyə qədər Amerika Birləşmiş Ştatları onun həyata keçirilməsinə çox böyük diqqət, qayğı göstərmişdir, bu işi himayə etmişdir. Əgər Amerika Birləşmiş Ştatlarının layihəyə bu qədər dəstəyi olmasaydı, biz bunu həyata keçirə bilməzdik".

2002-ci il sentyabrın 18-də bütün dünyanın nəzərləri Bakıya dikilmişdi. Həmin gün paytaxtdan 55 kilometr cənubda yerləşən Səngəçal terminalında BTC-nin təməlqoyma mərasimi keçirildi. Azərbaycanın, Gürcüstanın və Türkiyənin dövlət başçıları, ABŞ-nin energetika naziri, layihənin tərəfdaşları olan tanınmış xarici şirkətlərin səlahiyyətli nümayəndələri, neçə-neçə ölkənin jurnalistləri orada idilər. Deməli, Bakı-Tbilisi-Ceyhan reallığa çevrilirdi. Artıq işə başlanmışdı, Azərbaycana və Gürcüstana - tikinti aparılacaq ərazilərə xaricdən alınan borular gətirilirdi.

Layihənin mühüm bir mərhələsində - maliyyələşmə məsələləri həll edilərkən BTC-nin bədxahları yenidən baş qaldırdılar. Yəni onlar tikintinin təməli qoyulandan sonra da rahatlıq tapa bilmir, hər vasitə ilə layihəyə əngəl törətmək istəyirdilər. Bir sıra qeyri-hökumət təşkilatları tikintiyə mane olmaq üçün növbəti səbəblər uydururdular. Bu dəfə kəmərin Gürcüstanın "Borjomi" mineral su mənbəyinə ekoloji cəhətdən guya zərbə vuracağı fikrini ortaya atdılar. Bu da layihənin Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədlərinin imzalanmasını gecikdirirdi. Hətta müxtəlif qruplar kəmərin tikintisini maliyyələşdirəcək beynəlxalq qurumların ofisləri qarşısına toplaşaraq onun çəkilişinə etiraz edirdilər. Gürcüstan Respublikası dövlətinin və hökumətinin layihəni dəstəklədiyi, artıq işlərə start verildiyi bu məqamda sözügedən məsələ müəmma doğururdu. Demə, burada da erməni "əl"i varmış.

O zaman AŞ PA-nın sədr müavini olan İlham Əliyev məsələnin nədən və haradan qaynaqlandığını açıqladı. Belə ki,ermənilər BTC-nin reallaşma mərhələsinə qədəm qoyduğundan narahat olub internetdə sayt açmışdılar və Beynəlxalq Maliyyə Korporasiyasına, Dünya Bankına, digər beynəlxalq maliyyə qurumlarına layihə haqqında əks məlumat göndərirdilər. Onların əsas məqsədi Gürcüstanda kəmərin keçdiyi ərazilərdə gərginlik yaratmaq və bununla marşrutun dəyişdirilməsinə nail olmaq idi. Borjomi söhbətini ortaya atmaqla, kəmərin yolunun Gürcüstanın əsasən ermənilər yaşayan Axalkalaki rayonundan keçməsinin mümkün olacağını güman edirdilər.

O da məlum idi ki, həmin ilin (2003) mart ayında ermənilər ABŞ-də BTC-yə böhtan atıb onu gözdən salmaq üçün konfrans keçirməyə hazırlaşırdılar. Konfransa onları dəstəkləyən müxtəlif qeyri-hökumət təşkilatlarının nümayəndələrini dəvət etmişdilər. Bu, BTC əleyhinə kampaniyanın yeni mərhələsinin başlanması demək idi. Xaricdə yaşayan erməni diasporu həmin kampaniyaya açıq şəkildə hərtərəfli dəstək verirdi. Təbii ki, qarşıda layihənin maliyyələşdirilməsi məsələsinin dayandığı bir məqamda belə hallar təhlükəli idi.

Ulu Öndər layihənin həyata keçirilməsinin bütün mərhələlərində "BTC olacaq, olacaq, olacaqdır!" deyirdi. Ümummilli Liderin 2003-cü ilin fevral ayında Vaşinqtonda keçirilən "Şərq-Qərb enerji dəhlizi reallıqdır" konfransında şəxsən iştirak etməyi qərara alması da bu baxımdan təsadüfi deyildi. Konfransın keçirildiyi günlərdə Heydər Əliyev ABŞ-nin Prezidenti Corc Buş, vitse-prezident Riçard Ceyni, ticarət naziri Donald Evants, Energetika naziri Spenser Abraham ilə görüşdü. "Mübarizəmiz davam edəcək və biz istəyimizə nail olacağıq!" Bütün söhbətlərin başlıca məzmunu bu idi.

Tədbirin keçirildiyi günlərdə Azərbaycanın, Gürcüstanın və Türkiyənin səlahiyyətli nümayəndələri, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin rəhbəri Beynəlxalq Maliyyə Korporasiyasında oldular. BTC-nin maliyyələşdirilməsinə dair fikir mübadiləsi aparıldı. Sonra Ulu Öndər korporasiyanın rəhbəri Piter Voykeni qəbul etdi. Layihədə bu beynəlxalq maliyyə qurumunun imkanlarından istifadə məsələsi müzakirə olundu. P.Voyke bildirdi ki, korporasiyanın məqsədi yalnız bir kəmərin layihəsinin maliyyələşməsində deyil, regionda həyata keçirilən digər layihələrdə də fəal iştirak etməkdir...

Beləliklə, Heydər Əliyevin dünyadakı hörmət və nüfuzu BTC-ni bu çətinlikdən də çıxardı.

BTC qalib gəldi! Azərbaycanın bədxahları bu dəfə də məqsədlərinə çatmadılar. Ümummilli Liderin daha bir şah əsəri tarixdə özünə yer aldı. Belə ki, 2004-cü fevralın 3-də Bakıda, "Gülüstan " sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar son sənədlər imzalandı. Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərinin, BTC kreditorlar qrupunun nümayəndələri tərəfindən imzalanan maliyyələşmə paketi 78 müxtəlif tərəfin 17 mindən çox imzası olan 208 maliyyə sənədini əhatə edirdi.

"Gördüyümüz işlər Azərbaycanın gələcəyi üçündür" demişdi Heydər Əliyev. Qalan işlərin İlham Əliyev tərəfindən başa çatdırılacağına əmin olduğunu bəyan etmişdi böyük müdrik. Bunların bir təsdiqi də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin uğurlu istismarı və ondan sonra həyata vəsiqə alan neçə-neçə qlobal layihələrimizdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan Prezidentinin Qırğızıstana səfəri bu ölkə KİV-inin diqqət mərkəzindədir

Qazaxıstanın aparıcı KİV-ləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına dövlət səfərini geniş işıqlandırıb.




AZƏRTAC xəbər verir ki, "AKİpress", "Kabar" İnformasiya agentlikləri, QTRŞ-nin Teleradioyayım Korporasiyası, "Veçerniy Bişkek" qəzeti və digər media qurumları səfər çərçivəsində keçirilən görüşlər, imzalanan sənədlər, Birinci Dövlətlərarası Şuranın iclası və digər tədbirlər barədə materiallar hazırlayıblar.

Səfər ərəfəsində "Kabar" Agentliyi Qırğızıstanın Azərbaycandakı səfiri Kayrat Osmonaliyevin müsahibəsini dərc edib. Müsahibədə səfir qeyd edir ki, Qazaxıstanla Azərbaycan arasında münasibətlər keyfiyyətcə daha yüksək səviyyəyə yüksəlir, dövlət başçıları arasında danışıqlar isə ölkələrimiz üçün yeni əməkdaşlıq üfüqləri açır.

Qırğızıstan Prezidenti Sadır Japarovun bu il aprelin 19-20-də Bakıya rəsmi səfərini xatırladan səfir xüsusi vurğulayıb ki, bu hadisə iki ölkənin qarşılıqlı münasibətlərini qarşılıqlı fəaliyyətin strateji tərəfdaşlıq kimi daha yüksək səviyyəsinə çıxarıb, dövlət başçıları müvafiq bəyannamə imzalayıblar. Bundan başqa, Qırğızıstan tərəfinin təklifi ilə hər iki ölkə prezidentlərinin daimi nəzarəti altında dövlət orqanlarının qarşılıqlı fəaliyyətini inkişaf etdirməyə imkan verən nadir mexanizm - dövlət başçılarının Dövlətlərarası Şurasının yaradılması barədə Memorandum imzalanıb.

"Regional və dünya siyasətində artıq çoxdan və uğurla fəaliyyət göstərən Azərbaycan lideri ilə səmimi dostluq münasibətlərinin qurulması, şübhəsiz, bizim dövlətimiz üçün olduqca əhəmiyyətli və mühümdür. Buna görə də qardaş dövlətin prezidentinin birinci dövlət səfərinə belə böyük əhəmiyyət verilir", - deyə K.Osmonaliyev vurğulayıb.

İnformasiyalarda diqqətə çatdırılır ki, oktyabrın 11-də Bişkekdəki "Ala-Arça" dövlət iqamətgahında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti "Ata-Beyt" Milli Tarixi-Memorial Kompleksini ziyarət edib. O, 1916-cı il faciəli hadisələri nəticəsində həlak olanların, Stalin repressiyası qurbanlarının abidəsi önünə əklil qoyub, həmçinin dahi qırğız yazıçısı Çingiz Aytmatovun xatirəsini yad edib.

Sonra Qırğızıstan və Azərbaycan liderləri ikitərəfli danışıqlar aparıb, Birinci Dövlətlərarası Şuranın iclasında iştirak ediblər. Qırğızıstan-Azərbaycan birgə qarşılıqlı fəaliyyətin artırılmasına istiqamətlənən bir sıra sənədlər, xüsusilə Qırğızıstan Respublikasının Nazirlər Kabineti ilə Azərbaycan hökuməti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında Saziş imzalanıb.

Fond Qırğızıstanla Azərbaycan arasında iqtisadi əməkdaşlığa, iqtisadiyyatın modernləşdirilməsi və imkanlardan səmərəli istifadə olunmasına kömək məqsədilə təsis edilib. Qırğız KİV-ləri qeyd edirlər ki, fondun yaradılması investisiya sahəsində əməkdaşlığın fəallaşdırılması və genişləndirilməsinə stimul verəcək. Qırğızıstanla Azərbaycan arasında birgə ikitərəfli investisiya fondunun nizamnamə kapitalı 25 milyon ABŞ dolları təşkil edir. Fondun mənzil-qərargahı Bişkek şəhərində yerləşəcək.

Materiallarda eyni zamanda vurğulanır ki, Bişkekdə Qırğızıstan-Azərbaycan Dostluq Parkının açılışı olub. Mərasimdə Qırğızıstan və Azərbaycan prezidentləri iştirak ediblər.

Toplaşanlar qarşısında çıxış edən Prezident Sadır Japarov vurğulayıb ki, parkın açılışı iki ölkə arasında dostluq münasibətlərinin və iki qardaş xalqın təkcə siyasi, iqtisadi əməkdaşlıqda deyil, həm də mədəni-humanitar əməkdaşlıqda tarixi əlaqələrinin parlaq nümunəsidir.

Öz növbəsində Prezident İlham Əliyev qeyd edib ki, bu parkın açılışı rəmzi məna daşıyır. O, belə xoş münasibətə görə Azərbaycan xalqı adından minnətdarlıq ifadə edib.

Qırğızıstan KİV-ləri bu gün iki ölkənin liderlərinin iştirakı ilə Bişkekin 20 saylı Məktəb-Gimnaziya Təhsil-Təlim Kompleksinə Heydər Əliyevin adının verilməsi ilə bağlı təntənəli mərasimin keçirilməsini və Qırğızıstan paytaxtında Nizami Gəncəvi adına məktəbin açılmasını da geniş işıqlandırıb.

Qeyd olunub ki, Heydər Əliyevin "Bizim cəmiyyətin gələcək tərəqqisi bu gün bizim gənclərimizə nəyi və necə öyrətməyimizdən çox asılı olacaq" sözlərini xatırladan Sadır Japarov varisliyi qorumasına, yüksək dostluq, həmrəylik və dəstək tellərinə şəxsi bağlılığına görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

# Bakıda MDB-nin İştirakçı Dövlətlərinin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclası keçirilib





Oktyabrın 12-də Bakıda Müstəqil Dövlətlər Birliyinin (MDB) İştirakçı Dövlətlərinin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, Belarus Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Viktor Qulyeviç, Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Marat Xusainov, Qırğızıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Erlis Terdikbayev, Özbəkistan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Şuxrat Xalmuxamedov, Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini general-polkovnik Sergey İstrakov və Tacikistan Respublikasının Rusiya Federasiyasındakı hərbi attaşesi polkovnik Rüstəm Cumayev iştirak ediblər.

İclasda Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev giriş sözü ilə çıxış edib.

Müstəqil Dövlətlər Birliyinin İştirakçı Dövlətlərinin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclasının Azərbaycanda keçirilməsi barədə qəbul edilən qərara görə təşəkkürünü ifadə edən Kərim Vəliyev əminliyini bildirib ki, bugünkü iclas işgüzar və konstruktiv mühitdə keçərək məhsuldar olacaq və dövlətlərimizin rifahı naminə münasibətlərimizin daha da inkişaf etməsinə töhfəsini verəcək. Belə görüşlər iclas iştirakçıları arasında ikitərəfli əməkdaşlığın gündəliyinin bəzi məsələlərini müzakirə etmək üçün də yaxşı imkandır.

Cənubi Qafqazda yaranmış postmünaqişə dövrü barədə məlumat verən Kərim Vəliyev qeyd edib ki, hazırda regionda sülh, əməkdaşlıq və nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni perspektivlər yaradılıb.

Azad edilmiş ərazilərin minalardan təmizlənməsi və yararsız vəziyyətə gətirilmiş infrastrukturun bərpasının Azərbaycanın qarşısında duran əsas vəzifələrdən olduğunu qeyd edən general-polkovnik deyib: "Hazırda biz işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı tikinti-bərpa işləri həyata keçiririk. Müharibə bitəndən sonra Azərbaycanın 250-dən çox vətəndaşı minaların partlaması nəticəsində həlak olub və ya ciddi xəsarət alıb. Ermənistan minalanmış ərazilərin tam, dolğun xəritələrini bizə verməkdən boyun qaçırır. Bizə təqdim edilmiş az sayda xəritələrdə əks olunmuş məlumatların dəqiqliyi təxminən 25 faiz təşkil edir.

Azərbaycan, sülh tərəfdarı olaraq, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları üçtərəfli Bəyanatın müddəalarının yerinə yetirilməsinə sadiqdir və Ermənistanla münasibətləri normallaşdırmağa, sülh sazişinin imzalanmasına, sərhədlərin qarşılıqlı etimad və mehriban qonşuluq ruhunda delimitasiyası və demarkasiyasına hazırdır.

Təəssüf ki, son dövrdə Ermənistan bir neçə dəfə açıq-aşkar təxribatlara əl ataraq Azərbaycanı cavab tədbirləri görməyə vadar edib. Belə hərəkətlər MDB-nin ruhuna, beynəlxalq hüquq prinsiplərinə və həmin üçtərəfli Bəyanata ziddir.

Azərbaycan Ermənistanın üzərinə götürdüyü öhdəliklərin tam yerinə yetirməsini gözləyir. Biz dəfələrlə konstruktiv dialoqa və birgə əməkdaşlığa hazır olduğumuzu bəyan etmişik".

Baş Qərargah rəisi əminliyini bildirib ki, bugünkü görüş ölkələrimiz arasında münasibətlərin inkişafına əlavə təkan verəcək və yeni üfüqlər açaraq ölkələrimizdə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə töhfəsini verəcək: "Ümidvaram ki, siz Azərbaycana səfər etməkdən məmnun qalacaq və özündə Qərb ilə Şərqin vəhdətini, zəngin tarixi, memarlığı, mədəni irsi tərənnüm edən sürətlə inkişaf edən Bakı şəhəri ilə yaxından tanış olmaq fürsətindən yararlanıb, ölkəmizdə aparılan müsbət dəyişikliklərin bilavasitə şahidi olacaqsınız".

Tədbirdə hərbi əməkdaşlığın cari il üzrə yekun nəticələri, növbəti il üçün inkişaf perspektivləri, həmçinin sülhün və təhlükəsizliyin təmin olunması və qarşılıqlı maraq kəsb edən digər məsələlər müzakirə olunub.

İclasın sonunda yekun protokollar imzalanıb, MDB-nin İştirakçı Dövlətlərinin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclasının 2023-cü ildə Rusiya Federasiyasında keçirilməsi haqqında qərar qəbul edilib.

İclasda yekun nitqlə çıxış edən Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik K.Vəliyev qeyd edib ki, birgə fəaliyyət konstruktiv şəraitdə keçib. İclas zamanı hərbi əməkdaşlığa dair qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən dünyada mövcud hərbi-siyasi vəziyyət müzakirə olunub. Təhlükəsizlik və sabitlik üçün çağırış və təhdidlərin dəf edilməsi imkanlarına dair ətraflı fikir mübadiləsi aparılıb.

Bununla yanaşı, Müstəqil Dövlətlər Birliyinin İştirakçı Dövlətlərinin Silahlı Qüvvələrinin radiasiya, kimyəvi və bioloji mühitə nəzarət və qiymətləndirilməsi üzrə vahid sisteminin fəaliyyət göstərməsi, humanitar minatəmizləmə üzrə birgə mühəndis bölməsinin fəaliyyəti, pilotsuz uçuş aparatları kompleksləri üzrə mütəxəssislərin hazırlanması və 2023-cü ildə "Döyüş birliyi" birgə təlimlərinin keçirilməsinə dair məsələlər də nəzərdən keçirilib.

Baş Qərargah Rəisləri Komitəsi növbəti il üçün müdafiə qurumlarının əməkdaşlığının daha da dərinləşdirilməsi, silahlı qüvvələrin birgə tədbirlərinin keçirilməsi, terrorçuluğa, çağırış və təhdidlərə qarşı birgə mübarizə səylərinin təmin edilməsini nəzərdə tutan çoxtərəfli hərbi əməkdaşlıq üzrə birgə tədbirlər barədə ümumi razılığa gəlib, həmçinin hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində digər qərarlar qəbul olunub.

MDB-nin İştirakçı Dövlətlərinin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclasının 2023-cü ildə Rusiya Federasiyasında keçirilməsi qərara alınıb.

Kərim Vəliyev çıxışının sonunda vurğulayıb ki, Qərargah Rəisləri Komitəsinin iclasının yekunları silahlı qüvvələrin qarşılıqlı fəaliyyətinin möhkəmləndirilməsi və MDB məkanında sabitliyin qorunub saxlanılması üçün bu əməkdaşlıq formatının aktuallığını bir daha təsdiqləyir.

# Azərbaycan-Qırğız münasibətləri yeni inkişaf mərhələsindədir

**Azərbaycan Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri ictimai rəydə rəğbətlə qarşılanıb. Azərbaycanın Orta Asiyanın türk dövlətləri ilə geniş əlaqələri olub.**

İstər Qazaxıstan, Özbəkistan, istərsə də Türkmənistanla münasibətlər məzmunca çoxşaxəli olması ilə yanaşı, həm də milli-mənəvi maraqlara bağlılığı ilə seçilir. Bunun da əsas səbəbi bu dövlətlərin xalqları ilə ortaq milli-mənəvi dəyərləri bölüşməyimizdir. Bütün türk dövlətləri ilə əməkdaşlığın daim inkişaf etdirilməsi ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biridir.

## Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan-Qırğızıstan münasibətləri

Azərbaycanla Qırğızıstan arasında yaranan uğurlu dövlətçilik münasibətlərinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider 1995-ci ilin avqustunda Türkdilli Dövlət Başçılarının III Zirvə Görüşü və "Manas" eposunun 1000 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün ilk dəfə Qırğızıstana səfərindən sonra ildən-ilə inkişaf edən münasibətlər hazırda iki ölkə arasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Cari il aprelin 20-də Qırğızıstan Prezidenti Sadır Japarov ölkəmizdə rəsmi səfərdə olub. Səfər zamanı "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə" imzalanıb.

Prezident İlham Əliyev Qırğız Respublikasına dövlət səfəri çərçivəsində ikitərəfli danışıqlar aparıb, həmçinin Dövlətlərarası Şuranın I iclasında iştirak edib. Daha sonra Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub. Prezidentlər mətbuata bəyanatlarla çıxışlar ediblər.

Azərbaycan Prezidentinin iştirakı ilə Qırğızıstan-Azərbaycan Dostluq Parkının, habelə Heydər Əliyev və Nizami Gəncəvi adına ümumtəhsil məktəbinin açılışı olub. Dostluq parkının açılışı zamanı Qırğız Respublikasının Prezidenti Sadır Japarov demişdir: "Cari ildə Qırğız Respublikası və Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlər fəallaşıb, strateji tərəfdaşlığının tamamilə yeni mərhələsinə qədəm qoyub. Bu əsasən Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Heydər oğlu Əliyevin şəxsi diqqət və dəstəyi sayəsində mümkün olub.

Hörmətli İlham Heydər oğlu, Sizin ölkənin milli maraqlarının təmin edilməsinə və müdafiəsinə, onun dünya ictimaiyyəti arasında beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə istiqamətlənmiş geniş qurucu fəaliyyətinizi xüsusilə qeyd etmək istəyirəm. Sizin şəxsi diqqətiniz və Qırğızıstanla bütün istiqamətlərdə əməkdaşlığı dərinləşdirmək istəyiniz bizim ölkədə hörmət və dəstəklə qarşılanır. Vurğulamaq istəyirəm ki, bizim üçün zamanın sınağından çıxmış qardaş Azərbaycanla strateji tərəfdaşlıq münasibətlərinin inkişafı mühüm əhəmiyyət kəsb edir".

Səfər zamanı Prezident İlham Əliyev Qırğız dövlətçiliyinin ən mühüm inkişaf mərhələlərinin tarixi yaddaşının bərpası və qorunub saxlanılmasını özündə əks etdirən "Ata-Beyt" Milli Tarixi-Memorial Kompleksini ziyarət edib, abidənin önünə əklil qoyub.

Görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun təklifi ilə kompleks "Ata-Beyt" - "Ataların məzarlığı" adlandırılıb.

Dövlətimizin başçısı görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun məzarını da ziyarət edib və üzərinə gül dəstəsi qoyub.

Ümumi sahəsi iki hektar olan kompleksdə 1920-1930-cu illərdə Qırğızıstanın siyasi həyatını əks etdirən sənədlər və fotoşəkillər, digər tarixi materiallar toplanıb. Kompleksin mərkəzində məzarlıq yerləşir, həmçinin burada muzey fəaliyyət göstərir.

## İki ölkənin əlaqələri dinamik inkişaf edir

Hazırda Qırğızıstanda təxminən 20 mindən çox azərbaycanlı yaşayır. Onların əksəriyyəti 1920-1930-cu illər bolşevik repressiyalarında bu ölkəyə sürgün olunanlar və ya onların övladlarıdır. İki ölkə arasında fundamental diplomatik əlaqələrin əsası 1993-cü ildən qoyulmuşdur. 1993-cü ilin dekabrında Türkmənistanda MDB Dövlət Başçıları Şurasının iclası zamanı Ulu Öndər Heydər Əliyevlə Qırğızıstan Prezidenti Əsgər Akayevin görüşü keçirilmişdir. Heydər Əliyev daha sonra 1995-ci ilin avqustunda Türkdilli Dövlət Başçılarının üçüncü sammitində iştirak etmək üçün Qırğızıstana gedib və orada qırğızıstanlı həmkarı ilə görüşüb. 11 sentyabr 1996-cı ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Qırğızıstan Respublikası Xarici İşlər Nazirliyi arasında protokol imzalanıb.

Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə Azərbaycan-Qırğızıstan münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan Prezidenti Cenevrədə keçirilən İnformasiya Cəmiyyəti üzrə Dünya Sammitinin işi zamanı 2003-cü il dekabrın 10-da Qırğızıstan Prezidenti Əsgər Akayevlə görüşüb. Görüş zamanı Qırğızıstan Prezidenti Dağlıq Qarabağ probleminə toxunaraq qeyd edib ki, biz Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik və bu mövqeyimizdə qalacağıq. 2004-cü il iyunun 2-də Qırğızıstanın müdafiə naziri E.Topoyev Bakıda rəsmi səfərdə olub. Səfər zamanı Azərbaycan və Qırğızıstan arasında hərbi sahədə əməkdaşlıq haqqında saziş imzalanıb. 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə görüşü keçirilib. Zirvə görüşünün sonunda prezidentlər Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişini və Zirvə toplantısının yekunu olaraq Naxçıvan Bəyannaməsini imzalayıblar. 2013-cü il avqustun 15-16-da Qırğızıstan Respublikasının Prezidenti Qəbələ şəhərində keçirilən TDƏŞ-nin Zirvə görüşündə iştirak etmişdir. Prezident İlham Əliyevin 2016-cı ildə Bişkekə səfəri Qırğızıstan-Azərbaycan ikitərəfli münasibətləri tarixində ən əhəmiyyətli görüş hesab edilir. Bu görüş iki ölkə arasında iqtisadi, siyasi, elmi-texniki, gömrük sahələrində əməkdaşlığa yeni təkan verib. İllərdir ki, hər iki respublika İƏT, İKT, BMT çərçivəsində əməkdaşlıq edirlər. 2004-cü il oktyabrın 29-da BMT Baş Məclisinin 59-cu sessiyasının 46-cı plenar iclasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndin Baş Məclisin gündəliyinə salınmasına dair qərar Qırğızıstan tərəfindən dəstəklənib. Qırğızıstan Ernənistan-Azərbaycan, Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini daim dəstəlkləyib, münaqişənin həlli üçün müəyyən dövrlərdə fəallıq göstərməyə çalışıb. 1994-cü ilin may ayında MDB-nin vasitəçiliyi ilə Ermənistanla Azətbaycan arasında atəşkəs haqqında müqavilə də məhz Qırğızıstanın paytaxtı Bişkek şəhərində imzalanıb.

Bütün bunlar onu deməyə əsas verir ki, diplomatik əlaqələr yarandığı gündən Qırğızıstan-Azərbaycan ikitərəfli əməkdaşlığı qarşılıqlı faydalı tərəfdaşlıq, dostluq əsasında qurulmuş və bütövlükdə siyasi, ticarət-iqtisadi, elmi-texniki, mədəniyyət və digər sahələrdə uğurla inkişaf etmişdir. Görünən odur ki, Azərbaycan digər türkdilli dövlətlərlə olduğu kimi, Qırğızıstanla da geniş siyasi-iqtisadi və mədəni əlaqələrini etibarlı şəkildə davam etdirir. Hər iki ölkənin məqsədi türk dünyasının inkişafına, siyasi və mədəni birliyinə töhfə verməkdir. Prezident İlham Əliyevin Qırğız Respublikasına dövlət səfəri, Prezident Sadır Japarov ilə görüşü, imzalanan sənədlər və liderlərin səsləndirdiyi fikirlər iki qardaş ölkənin münasibətlərində hərtərəfli əməkdaşlığa hesablanan yeni mərhələnin əsasının qoyulduğunu deməyə əsas verir. Bütün bunlar türkdilli dövlətlər arasında qardaşlıq münasibətlərinin inkişafında nümunəyə çevrilir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Medianın İnkişafı Agentliyi ilə Mətbuat Şurası arasında əməkdaşlıq memorandumu imzalanıb

Oktyabrın 12-də Medianın İnkişafı Agentliyi (MEDİA) ilə Mətbuat Şurası arasında əməkdaşlıq memorandumu imzalanıb.

AZƏRTAC xəbər verir ki, memorandumu Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov və Mətbuat Şurasının sədri Rəşad Məcid imzalayıblar.

Sənədin imzalanmasında məqsəd MEDİA və Mətbuat Şurası arasında müştərək layihələrin reallaşdırılması istiqamətində səmərəli və faydalı əməkdaşlıq münasibətlərinin qurulmasıdır. Həmçinin informasiya mühitinin şəffaflaşdırılması, jurnalistlərin peşəkarlığının və cəmiyyətin media savadlılığının artırılması, etik davranış qaydalarının tətbiqi sahəsində proseslərin stimullaşdırılması və bu məqsədlə digər fəaliyyətlərin koordinasiya edilməsidir.

Sənədə əsasən cəmiyyətdə media savadlılığının artırılması sahəsində birgə layihələrin icrası, jurnalistlərin informasiya almaq hüququnun təmin edilməsi istiqamətində imkanların genişləndirilməsi qarşıya məqsəd qoyulub. Eyni zamanda mediada dərc olunan və ya yayımlanan informasiyanın məzmununa dair hüquqi tələblərin, həmçinin Azərbaycan jurnalistlərinin etik davranış qaydalarının tətbiqi istiqamətində maarifləndirici tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Əməkdaşlıq memorandumu Azərbaycan mediasının beynəlxalq əməkdaşlıq perspektivlərinin artırılmasını, xarici təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə tədbirlər görülməsini, bu istiqamətdə birgə layihələr, konfranslar, təlimlər və seminarların təşkilini əhatə edir.





## Müzəffər sərkərdənin qüdrətli Ordusu

# Şəhidlər vüqarımız, qazilər qürurumuzdur

**Gəncədə Birinci Qarabağ və Vətən müharibələri zamanı 626 nəfər şəhid olub. Şəhərin 7 min nəfərə yaxın müharibə əlili və veteranı var. 221 şəhid, müharibə iştirakçısı və əlilinin ailə üzvləri "DOST İş Mərkəzi" MMC-də işə qəbul olunmuşdur. Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müvafiq sərəncamları ilə 270 şəhid ailəsi və müharibə əlili mənzil şəraitinin yaxşılaşdırılması üçün qeydiyyata götürülmüşdür.**





Bunlardan əlavə, Vətən müharibəsindən keçən müddət ərzində 107 şəhid ailəsinin üzvü, 175 nəfər müharibə iştirakçısı və əlilin ailə üzvü, ümumilikdə 282 nəfər Gəncə Şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyində müxtəlif işlərlə təmin edilmişlər.

Məlum olduğu kimi, XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış edərək növbəti təcavüzə başladı. Həmin dövrdə ölkəmizdə hökm sürən hərcmərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20 faizini işğal etdi. Mənfur qonşularımızın həyata keçirdikləri etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşdü. Lakin 2020-ci il sentyabrın 27-də başlayan və cəmi 44 gün davam edən Vətən müharibəsi nəticəsində xalqımızın torpaq, yurd, Vətən həsrətinə son qoyuldu. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz düşmən üzərində tarixi qələbə qazandı.

Beləcə, 2020-ci il 27 sentyabrdan başlayan Vətən müharibəsində Azərbaycan torpaqları yağı düşməndən xilas olundu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır!" şüarını başları üstündə bayraq edən əsgər və zabitlərimiz, igid oğul və qızlarımız bir nəfər kimi Vətənin müdafiəsinə qalxaraq Azərbaycanın haqlı olduğunu dünyaya bir daha sübut etdilər. Bu müharibə həm də xalq-ordu, ordu-xalq birliyinin necə sıx olduğunu göstərdi.

Müharibə isə itkisiz olmur. Bu savaşda 3 minə yaxın şəhid və minlərlə döyüşçümüz yaralanaraq qazi oldu. Bu gün Vətən müharibəsi zamanı torpaqlarımızın bütövlüyü uğrunda qəhrəmancasına döyüşərək şəhid olan hərbçilərimizin ailələri və müharibə iştirakçıları bütün ölkədə, o cümlədən Gəncədə daim diqqət mərkəzində saxlanılır. Şəhərdə fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlar 2020-2022-ci illər ərzində daim Vətən müharibəsində şəhid olanların ailələrini, yaralı hərbçiləri və müharibə iştirakçılarının evlərini ziyarət edir, onlara maddi və mənəvi dəstək olurlar.

Gəncə ŞİH başçısının birinci müavini Səməd Tomuyev deyir ki, şəhərdə şəhid ailələri və qazilərin bütün müraciətlərinə qayğıkeşliklə yanaşılır, onların həlli istiqamətində operativ tədbirlər görülür: "O cümlədən Vətən müharibəsində şəhid olan və yaralanan hərbçilərimizin ailələri ilə görüşlər keçirilir, onlara maddi yardımlar edilir. Bundan başqa, Vətən müharibəsindən keçən iki il müddətində şəhər rəhbərliyi Azərbaycan Respublikasının Silahlı Qüvvələri Fonduna və "YAŞAT" Fonduna müxtəlif məbləğlərdə ianələr etmiş, şəhidlərin dəfnlərində, onların yas mərasimlərində, yaralı hərbçilərimizin müalicə aldıqları xəstəxanalarda olmuş, onlara maddi və mənəvi dəstək olmuşdur. Təkcə onu demək kifayətdir ki, 2021-2022-ci illər ərzində Gəncə Şəhər İcra Hakimiyyətində 96 vətəndaş qəbulu keçirilmişdir. Bu qəbullarda iştirak edən vətəndaşların böyük əksəriyyətini şəhid ailələri, müharibə iştirakçıları və müharibə əlilləri təşkil etmişdir. Şəhər rəhbərliyi onların hər birinin müraciətlərinə xüsusi həssaslıqla yanaşmış, arzu və təkliflərini fərdi qaydada dinləmişdir. Bəzi məsələlər yerindəcə öz həllini tapmış, digərlərinin həlli istiqamətində müvafiq tapşırıqlar verilərək, nəzarətə götürülmüşdür".





Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatında çalışmış Fərman Rüstəmov, Kəpəz Rayon İcra Hakimiyyətində çalışmış Elnur Həsənov və Ayxan Babayev Vətən müharibəsində qismən səfərbərlik elan olunan zaman könüllü olaraq hərbi əməliyyatlarda iştirak etmiş və Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə mükafatlandırılmışlar. Müharibədən qayıtdıqdan sonra Ayxan Babayev Gəncə Şəhər İcra Hakimiyyətində yeni yaradılan Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinə müdir, Fərman Rüstəmov böyük məsləhətçi, Elnur Həsənov isə Natavan QİƏD üzrə nümayəndə müavini vəzifəsinə təyin olunmuşlar. Bununla yanaşı, Vətən müharibəsi iştirakçıları olmuş Rəşad Babayev, Elxan Zeynalov və Hüseyn Babayev Nizami və Kəpəz İcra hakimiyyətlərində müxtəlif işlərlə təmin olunmuşlar. Eyni zamanda 221 şəhid, müharibə iştirakçısı və əlilinin ailə üzvləri "DOST İş Mərkəzi" MMC-də işə qəbul olunmuşdur.

Şəhidlərin adlarının əbədiləşdirilməsi istiqamətində də müvafiq işlər həyata keçirilmişdir. Belə ki, şəhid Mirhüseyn Seyidzadə, Bəhruz İsgəndərov və Qəzənfər Məmmədovun adları küçələrə verilmiş, orden almış 16 şəhidin adının əbədiləşdirilməsi məqsədilə təhsil müəssisələrinə onların adlarının verilməsi üçün müvafiq qurum qarşısında vəsatət qaldırılmışdır. Eyni zamanda sözügedən kateqoriyadan olan şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müvafiq sərəncamları ilə 270 şəhid ailəsi və müharibə əlili mənzil uçotuna götürülmüşdür.

Gəncə Şəhər İcra Hakimiyyəti Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyi tərəfindən də Qarabağ müharibəsində şəhid olanların ailələri, yaralı hərbçilər və müharibə iştirakçıları daim diqqətdə saxlanılırlar. 2020-2022-ci illər ərzində bu kateqoriyadan olan şəxslərin müraciətlərinə həssaslıqla yanaşılmış, 107 şəhid ailəsinin üzvü, 175 müharibə iştirakçısı və əlilinin ailə üzvləri, ümumilikdə 282 nəfər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyində müxtəlif işlərlə təmin olunmuşdur. Bununla yanaşı, İB-in təmir-tikinti, qəza və təchizat şöbəsi Vətən müharibəsi iştirakçıları, şəhid ailələri və qazilərə yaşadıqları ünvanlarda təmir-tikinti işləri aparmaq üçün müxtəlif yardımlar etmişdir.



Gəncə şəhəri Nizami və Kəpəz bələdiyyələri də şəhid ailələri, müharibə iştirakçıları və əlilləri daim diqqətdə saxlayır. Belə ki, bələdiyyələr şəhidlərin qəbirüstü abidələrinin qoyulmasını təşkil edir, şəhid ailələri, müharibə iştirakçıları və əlillərə bayram sovqatları göndərir. Bundan əlavə, bələdiyyələr tərəfindən 40 şəhid ailəsi və müharibə əlilinə torpaq sahəsi ayrılmışdır.

Bələdiyyələrlə yanaşı, şəhərdə fəaliyyət göstərən səhiyyə, təhsil, mədəniyyət müəssisələri də şəhid ailələri, müharibə iştirakçıları və əlillərə müxtəlif yardımlar etmişlər. Gəncə Şəhər Birləşmiş Xəstəxanası Vətən müharibəsindən sonra 67 nəfər şəhid ailəsinin üzvünü, müharibə iştirakçısını, eləcə də əlil və onların ailə üzvlərini işlə təmin etmişdir. Eyni zamanda xəstə xidmətləri şöbəsində müharibə iştirakçıları ilə koordinasiya bölməsi fəaliyyət göstərir ki, burada da 500 nəfərdən artıq müharibə iştirakçısına xidmət göstərilir. Gəncə Şəhər Birləşmiş Xəstəxanası və tabeliyində olan digər müəssisələr Gəncə şəhər və ətraf rayonların şəhid ailələri, müharibə əlilləri və iştirakçılarının ailələrinə təmənnasız xidmət edir, onların səhhəti ilə maraqlanır və onları lazımi tibbi yardımla təmin edirlər.

Ənənəvi işlər Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən də aparılır. İdarə tərəfindən igidlərimizin nümayiş etdirdikləri əzmkarlığı yetişməkdə olan gəncliyimizə daha dərindən aşılamaq üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, 2020-2022-ci illər ərzində Vətən müharibəsi iştirakçıları, əlillər və şəhid ailələrinə həsr olunmuş 28 tədbir və ziyarət baş tutmuşdur ki, bu tədbirlərdən 22-si gənclər ilə iş sahəsini, 6-sı isə idman sahəsini əhatə etmişdir. Bununla yanaşı, 30-a yaxın şəhid və qazi ailəsi ziyarət edilmiş, onlarla görüşlər təşkil olunmuşdur. 13 şəhid övladına, 2 qazi övladına yeni geyim dəstləri, 3 şəhid övladının ad günləri münasibətilə müxtəlif hədiyyələr təqdim olunmuş, 20 müharibə iştirakçısına qurban payı verilmişdir. Eyni zamanda regionlarda idmanın inkişaf etdirilməsi layihəsi çərçivəsində 80 şəhid övladına idman geyimi dəsti və futbol topları hədiyyə olunmuş, 2 nəfər müharibə iştirakçısı "Kəpəz" Peşəkar Futbol Klubunda və Gəncə İdman Liseyində işlə təmin olunmuşdur. Gəncə Gənclər Evi tərəfindən də sözügedən həssas kateqoriyaya yardımlar edilmişdir. Belə ki, müəssisə tərəfindən 26 şəhid və qazi ailəsi ziyarət edilmiş, müxtəlif məbləğlərdə maddi və ərzaq yardımı olunmuşdur.

Şəhərin təhsil müəssisələrində də şəhid övladları xüsusi diqqətlə əhatə olunurlar. Azərbaycan Dövlət Aqrar Universiteti tərəfindən Cavadov Canlar Aqil oğlunun ailəsinə ADAU-nun Həmkarlar İttifaqı Komitəsi tərəfindən 2020-ci ilin oktyabr ayından etibarən 3 il müddətində hər ay müvafiq məbləğdə maddi yardım göstərilir. Bundan başqa, Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalması nəticəsində evləri dağılmış 200-dən çox ailənin ADAU-nun yeni istifadəyə verilmiş yüksək standartlara cavab verən yataqxanasında məskunlaşmasına şərait yaradılmışdır.

Gəncə Dövlət Universitetinin isə idarə aparatı işçilərinin, dekanlarının, kafedra müdirlərinin aylıq tam əməkhaqlarının 20, şöbə müdirləri, dekan müavinləri, professor-müəllim heyətinin hər birinin aylıq tam əməkhaqqının 10 faizi Silahlı Qüvvələrin Yardım Fonduna köçürülmüş, Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsində yaralananların və şəhid ailələrinin təminatına dəstək üçün yaradılmış "YAŞAT" Fonduna büdcədənkənar vəsait hesabına ianə edilmişdir. Bundan savayı, İkinci Qarabağ müharibəsində iştirak etmiş universitet əməkdaşlarının Vətən qarşısında xidmətləri nəzərə alınaraq, hər birinə müvafiq məbləğdə maddi yardım edilmiş və 13 nəfər əməkdaşın onların əməkhaqlarına hər ay büdcədənkənar vəsait hesabına əlavələr olunmuşdur. Eyni zamanda Birinci Qarabağ müharibəsində iştirak edən universitet əməkdaşlarının da hər birinin aylıq əməkhaqqına əlavələr edilmişdir.

Başqa bir fakt: universitetin Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhid olmuş əməkdaşlarından Leksika və ölkəşünaslıq kafedrasının müdiri, dosent Sevda Aqil qızı Kazımovanın övladı Yüksəl İlqar oğlu Əlizadənin və Fizika kafedrasının baş müəllimi Sabir Müseyib oğlu Abdullayevin övladı Elşən Sabir oğlu Abdullayevin xatirəsini əbədiləşdirmək üçün universitet ərazisində onların portretləri əks olunmuş tablolar quraşdırılmış, Pedaqoji fakültənin fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı ixtisasları üzrə 108 saylı auditoriyaya fakültənin məzun şəhidləri Elşən Sabir oğlu Abdullayevin və 110 saylı auditoriyaya Nicat Habil oğlu Atayevin adı verilmişdir.

Universitetin əsas tədris binasında müxtəlif illərdə məzun olmuş şəhid tələbələrin xatirə lövhəsi və eyni zamanda II Qarabağ müharibəsində iştirak etmiş əməkdaşların və tələbələrin şəkilləri əks olunmuş guşədə yaradılmışdır. AHİK-in xəttilə şəhid ailələrinə, Qarabağ müharibəsində iştirak etmiş universitet əməkdaşlarına dəfələrlə maddi yardım edilmişdir. Universitet rəhbərliyinin təşəbbüsü ilə Qarabağ müharibəsi ərəfəsində universitet əməkdaşları dəfələrlə cəbhə bölgəsində olmuş, hərbiçilərlə görüşmüş, onlardan mənəvi dəstəklərini əsirgəməmişlər.

Bununla yanaşı, universitetin bakalavriat və magistratura səviyyələrində müxtəlif ixtisaslarda əyani və qiyabi formada ödənişli əsaslarla təhsil alan, 2020-ci ildə Vətən müharibəsində iştirak edən və yaralanan 18 tələbə 2020-2021-ci tədris ilinə aid təhsilhaqqı borcundan azad olunmuşlar. Universitetin bakalavriat və magistratura səviyyələrində müxtəlif ixtisaslarda əyani və qiyabi formada ödənişli əsaslarla təhsil alan, 2020-ci ildə Vətən müharibəsində iştirak edən tələbələr alt qrupa aid təhsil haqqı ödənişindən azad edilmişlər. 2021-2022-ci tədris ilinin yaz və payız imtahan sesiyasında şəhid ailəsi üzvü olan, işğal olunmuş ərazilərimizin azadlığı uğrunda Vətən müharibəsində iştirak edən və valideyni Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı yaralanaraq əlil olan tələbələrin ailə vəziyyətini nəzərə alaraq onlar, cari tədris ilinin yaz semestrində iki fəndən təkrar imtahan verən zaman fənn üzrə müəyyənləşdirilmiş təhsil haqqının 25 faizindən azad olunurlar.

Azərbaycan Texnologiya Universitetində də analoji işlər görülmüşdür. Belə ki, rəhbərlik universitetin tələbəsi olmuş şəhidlərin ailələri ilə daim maraqlanmış, onların evlərini və məzarlarını ziyarət etmiş, ailələrinə müxtəlif maddi və mənəvi yardımlar etmişlər. Aprel döyüşləri şəhidi Rəşad Niftəliyevin, 44 günlük Vətən müharibəsi şəhidləri Kərim Əhmədəliyevin, Ramin Mikayılovun valideynləri ilə görüş təşkil edilmiş, onlara müxtəlif yardımlar olunmuşdur. Rəşad Niftəliyevin adına auditoriya yaradılmış, Kərim Əhmədəliyevin xatirəsinə yazılmış kitabın universitetdə təqdimatı keçirilmişdir.

Universitetin Elmi Şurasının qərarları ilə Gəncə şəhərinə atılan raket zərbələri nəticəsində evlərinə ziyan dəymiş və kirayədə yaşayan 3-cü kurs tələbəsi Gülçin Ağayevanın 2021-2022-ci tədris ili üzrə təhsil haqqı, müharibə iştirakçısı Kamran Rüstəmovun kredit borcu, müharibə iştirakçısı Həsən Rəhimbəylinin təhsil haqqından müvafiq məbləğdə borc universitetin hesabına ödənilmişdir.

Sözügedən diqqət və qayğı orta-ixtisas təhsil müəssisələrində də göstərilmişdir. Belə ki, Gəncə Tibb Kollecində şəhid ailələrinin övladları, qazilər və müharibə zamanı kollecdə təhsillərini dondurub könüllü döyüşlərə qoşulan veteran tələbələrə kollektiv tərəfindən daim dəstək göstərilmiş, ehtiyacları ödənilmişdir. Bununla yanaşı, kollecin rəhbərliyi tərəfindən silahlı qüvvəllər fonduna ianə verilmişdir.

Ənənəvi hal Gəncə Dövlət Universitetinin nəzdindəki Regional Kollecdə də müşahidə olunmuşdur. Belə ki, kollecdə şəhid olmuş məzun və tələbələrin şəkillərini əks etdirən guşə yaradılmışdır. Kollecin məzun şəhidlərinin ailə üzvlərinə əlavə təhsil almalarında kömək göstərilmiş, müharibədə yaralanmış və iştirak etmiş 28 tələbəyə əyani təhsil formasından qiyabi təhsil formasına köçürülməsinə, şəhid Asif Yolçu oğlu Qocayevin həyat yoldaşına kollecdə əlavə təhsil almasına yardım edilmiş, əlavə olaraq müharibə əlili Vüsal Nəsib oğlu Nəsibovun həyat yoldaşı işlə təmin olunmuşdur.

Şəhərin orta təhsil müəssisələrində də şəhid ailələri, müharibə iştirakçıları və əlilləri xüsusi diqqətlə əhatə olunurlar. Xatırladaq ki, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Gəncə şəhəri üzrə ümumtəhsil müəssisələrində çalışmış 2 müəllim 44 günlük Vətən müharibəsində şəhid olmuşdur. Gəncə şəhər M.Müşfiq adına 14 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi işləmiş şəhid Rabil İsmayılovun qardaşı Vüsal İsmayılov Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin Maliyyə sektorunda mühasib vəzifəsinə təyin edilmişdir. Bundan başqa, Gəncə şəhəri üzrə ümumtəhsil müəssisələrində təhsil alan 77 şəhid və qazi övladları ilə əlamətdar günlərdə görüşlər keçirilmiş, onlara hədiyyə və mükafatlar təqdim olunmuşdur. 2 il müddətində ümumilikdə 87 şəhid və qazi ailəsi işlə təmin olunmuşdur. Eyni zamanda həssas kateqoriyaya aid olan 17 müəllimin iş yeri Elm və Təhsil Nazirliyinin razılığı əsasında Gəncə şəhər ümumtəhsil müəssisələrinə dəyişdirilmişdir.

Göründüyü kimi, Gəncədə şəhid ailələrinə və qazilərə, eləcə də müharibə iştirakçılarına böyük diqqət və qayğıkeşlik göstərilir. Çünki hər birimizin qəlbində müqəddəs bir hiss var. Bu, Vətənə olan məhəbbət hissidir. Hər bir kəs bu dünyaya göz açdığı anda ilk olaraq anasını görürsə, ilk qədəmlərini Vətən torpağında atır və torpaq sevgisinin hərarətini duyur. İgid Vətən oğulları da gözünü qırpmadan, ölümün gözünə dik baxaraq torpaq, el-oba uğrunda canlarından keçdilər. Ən ali, müqəddəs və şərəfli olan şəhidlik zirvəsinə yüksəldilər. Vətənin, millətin yolunda şüurlu surətdə canlarını fəda edənlər isə hər zaman hörmətə layiqdirlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Bakı və İrəvan sülh sazişini imzalamağa yaxındır

### Ermənistan Azərbaycanın Qarabağ üzərində hakimiyyətini tanıdığını rəsmən təsdiqləyib

Vətən müharibəsindən ötən müddət ərzində Azərbaycan regionda sülhün, təhlükəsizliyin bərqərar olması üçün Ermənistanla sülh müqaviləsinin imzalanması prosesinin qısa zamanda həyata keçirilməsinin zəruriliyini vurğulayır.

Bu istiqamətdə Azərbaycanın irəli sürdüyü təkliflər beynəlxalq birlik tərəfindən də dəstəklənir. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə tərəflər arasında keçirilən görüşlər də təsdiq edir ki, regionun inkişafı sülh müqaviləsinin imzalanmasından keçir.

Prezident İlham Əliyevin bu istiqamətdə yürütdüyü milli maraqlara əsaslanan siyasət də göstərir ki, Azərbaycanın mövqeyi dəyişməzdir və sülh müqaviləsinin imzalanması vacibdir.

#### Sülh müqaviləsi regionda təhlükəsizliyi bərpa edəcək

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin Praqaya səfəri, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Fransa Prezidenti Emmanuel Makron və Ermənistan baş naziri Nikol Paşinyanla dördtərəfli görüşünün nəticəsi, eyni zamanda digər ölkələrin rəhbərləri ilə apardığı danışıqlar dövlətimizin milli maraqlarına xidmət edir və Azərbaycan diplomatiyasının uğuru kimi qiymətləndirilir. Deputatın fikrincə, görüşlər dünyada, eləcə də Avropada Azərbaycan Prezidentinə olan inamın, ona bəslənilən etimadın yüksək olduğunun göstəricisidir.

Tahir Rzayev deyir ki, Praqa görüşünün çox böyük əhəmiyyəti var. Ona görə ki, Aİ Şurasının prezidenti Şarl Mişel Azərbaycan-Ermənistan münasibətlərinin yaxşılaşdırılması ilə əlaqədar bir neçə dəfə üçtərəfli görüşün keçirilməsinin təşəbbüsçüsü olub. Bu görüşlərin nəticəsi uğurlu hesab olunmalıdır, çünki danışıqlarda Azərbaycan Prezidentinin qarşıya qoyduğu 5 prinsip əsas götürülüb, həmin şərtlərin həyata keçirilməsi ilə əlaqədar müəyyən tapşırıqlar verilib. Bu gün həmin vəzifələrin icra olunması istiqamətində işlər gedir. Azərbaycan dövləti, ölkə rəhbəri həmin prinsiplərin həyata keçirilməsində israrlıdır və bu tələblər bilavasitə xalqımızın, dövlətimizin milli maraqlarını özündə ehtiva edir.

Komitə sədri vurğulayır ki, sərhədlərin dəqiqləşdirilməsi, sülh müqaviləsinin imzalanması, Zəngəzur dəhlizinin açılması, eləcə də erməni silahlı birləşmələrinin Qarabağ ərazilərindən çıxarılması gündəmdə olan əsas məsələlərdir: "Prezident İlham Əliyev bütün danışıqlarda bu məsələləri ön plana çəkməklə, regionda sülhün, əmin-amanlığın yaranmasının tərəfdarı olduğunu nümayiş etdirir. Bu görüşdə də cənab Prezident bir daha xatırlatdı ki, sülh müqaviləsinin imzalanması hər iki ölkə üçün önəmlidir".

Tahir Rzayev qeyd edir ki, bu gün Azərbaycan dünyanın diqqət mərkəzindədir, xüsusilə, Avropada yaranmış enerji böhranı Aİ ölkələrini Azərbaycanla münasibətlərin yaxşılaşdırılması üçün müəyyən vəzifələrin yerinə yetirilməsinə vadar edir. Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən ölkə rolunda çıxış edir. Dövlətimizin başçısının apardığı düzgün, düşünülmüş siyasət, ölkəmizdə həyata keçirilən mühüm layihələr, beynəlxalq təşkilatlar qarşısında qoyulan vəzifələr deməyə əsas verir ki, respublikamızda sülhün, əmin-amanlığın yaranması təmin olunacaq və Azərbaycan dünyanın ən sülhsevər, qətiyyətli və öhdəliklərini inamla yerinə yetirən dövlət kimi tarixə düşəcək.

Avropa İttifaqının Azərbaycanla təmasda olması beynəlxalq aləmdə nüfuzumuzun gündən-günə yüksəlməsinin göstəricisidir. Azərbaycan dünyanın demokratik ölkələrindən biri kimi gələcəkdə də özünü sülhsevər ölkə kimi təsdiqləyəcək. Prezidentin imzaladığı hər bir sənədin arxasında xalqımızın mənafeyi, dövlətin gələcəyi, insanların rifah halının yaxşılaşdırılması durur.

#### Praqa görüşü Azərbaycanın tarixi qələbəsidir

Milli Məclisin deputatı Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev Praqa görüşünün nəticəsinə dair qəbul olunan bəyanatla daha bir tarixi prosesə imza atdı. Bu, Azərbaycan diplomatiyasının, şəxsən Prezident İlham Əliyevin Ermənistan üzərində növbəti siyasi qələbəsi oldu. Görüşdə Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, Prezident İlham Əliyevin sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü şərtlərlə razılaşdığını bildirdi. Digər məsələlərin də həlli hər iki dövlətin xarici işlər nazirlərinə tapşırıldı.

Kamilə Əliyeva deyir ki, Ermənistan rəhbərliyi Azərbaycan xalqının iradəsini, dövlətimizin potensialını düzgün qiymətləndirərək konstruktiv mövqe nümayiş etdirməlidir. Ermənistan bu gün dünyada müstəqil dövlət kimi tanınsa da, suveren ölkə deyil: "Ermənistanda hakimiyyətdə olan dövlət və hökumət başçılarının heç biri müstəqil siyasət yürütməyə qadir olmayıb. Ermənistan ona himayədarlıq edən dövlətə, beynəlxalq təşkilatlara da xəyanət edib və bundan sonra da edəcək".

Azərbaycanın isə müstəqil, suveren dövlət, beynəlxalq aləmdə böyük nüfuza malik olduğunu vurğulayan deputat qeyd edir ki, Prezident İlham Əliyev bütün dövlətlərlə balanslaşdırılmış müstəqil siyasət yürüdən güclü siyasətçi, mahir diplomatdır. Dövlətimizin başçısının apardığı uğurlu xarici siyasətin nəticəsidir ki, Avropa İttifaqı və bir sıra Avropa dövlətləri Azərbaycanı özlərinə etibarlı müttəfiq və dost dövlət hesab edirlər. Bu yüksək etimad və hörmət dövlət başçımızın güclü siyasətçi olmasının, müstəqil, qətiyyətli xarici siyasət yürütməsinin nəticəsidir.

Azərbaycanın "Şimal-Cənub", "Şərq-Qərb" marşrut xətlərinin mərkəzində yerləşməsini, eyni zamanda öz ərazisində yaratmış olduğu müasir nəqliyyat infrastrukturunu Avropa çox yüksək qiymətləndirir və buna böyük önəm verir. Azərbaycandan Avropaya ixrac olunan təbii qazın həcmi hər il artırılır. Bu ilin iyul ayında Avropa Komissiyasının prezidenti ilə Bakıda imzalanmış Anlaşma Memorandumuna əsasən, Azərbaycandan Avropaya ixrac olunan qazın həcmi iki dəfə artırılacaq. Bir neçə ildən sonra ixracın ən azı 18 milyard kubmetrə çatdırılması nəzərdə tutulur, yəni ölkəmiz Avropanın enerji təhlükəsizliyinə böyük dəstək olacaq.

Deputatın sözlərinə görə, Avropa İttifaqı Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün böyük təşəbbüs göstərir. Aİ Şurasının prezidenti Şarl Mişelin iştirakı ilə bir neçə dəfə keçirilən üçtərəfli görüşlər, eləcə də oktyabrın 6-da Fransa Prezidenti Makronun iştirakı ilə reallaşan dördtərəfli görüş sülh prosesinin yaxınlaşmasına ümidi artırır. Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin mütəmadi görüşlərinin keçirilməsi, həmçinin hər iki dövlətin müvafiq komissiyaları tərəfindən sülh mətninin hazırlanması gündəmdə duran vəzifələrdəndir.

K.Əliyeva vurğulayır ki, Ermənistan ölkəmizin suverenliyini tanımaqla, Azərbaycanın Qarabağ üzərində hakimiyyətini də tanıyıb: "Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, artıq bütün dünya "Qarabağ Azərbaycandır!" ifadəsini tələffüz edir. Bu da Praqa görüşündə Azərbaycanın tarixi qələbəsidir".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# 13 oktyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi

Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən qruplaşma və yerdəyişmə apararaq cəbhənin bəzi istiqamətlərində kiçik qruplarla Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərir.

Oktyabrın 12-dən 13-ə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut istiqamətlərində ümumi vəziyyət gərgin olaraq qalır.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd “Tor-M2KM” ZRK, 1 ədəd ZSU-23-4 “Şilka” özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 “Qiasint-B” topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası məhv edilir və sıradan çıxarılır.

❖❖❖



Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti məhv edilir.

1-ci motoatıcı alayın bir bölüyə qədər canlı qüvvəsi isə pusquya salınır, hərəkətdə olan avtomobil texnikası sıradan çıxarılır.

❖❖❖

Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Sisian yaşayış məntəqəsi istiqamətindən işğal olunmuş ərazilərimizə doğru hərəkət edən könüllülərdən ibarət bir qrup atəş zərbəsi ilə məhv edilir.

Döyüş əməliyyatları zamanı tanınmış erməni terrorçu, “Körpə” ləqəbli Mqer Arutyunyan da zərərsizləşdirilir. Müqaviməti qırılan düşmən bölmələrində kütləvi fərarilik halları müşahidə olunur. Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayır.

❖❖❖

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri səhər saatlarından etibarən Tərtər və Ağcabədi rayonlarının ərazisini yenidən atəşə tutur.

Sentyabrın 27-dən bəri Tərtər şəhərində, rayonun qəsəbə və kəndlərində sakinlərə məxsus 100-dən çox ev dağılıb, 500-dək evə, 51 çoxmənzilli yaşayış binasına, 60 yardımçı tikiliyə, 18 sosial, 7 istehsal, 27 ticarət obyektinə, 14 inzibati binaya ziyan dəyib. Mülki şəxslər arasında ölən və yaralananlar var.

Ağcabədi rayonunun yaşayış məntəqələrində isə 11 ev tamamilə dağılıb, 150-ə yaxın evə, 1 uşaq bağçasına, 1 məscidə və 1 kitabxanaya ziyan dəyib.



❖❖❖

Prezident İlham Əliyev Türkiyənin “Haber Türk” televiziya kanalına verdiyi müsahibəsində



Ermənistanın humanitar atəşkəs rejimini pozmasının səbəblərini açıqlayır.

Prezident deyir ki, onlar hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək Ermənistanın terrorçu rəhbərliyi üçün adi bir haldır. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görüb: “Ermənistanın bu xain hücumunun səbəbi odur ki, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyirlər. Məhz buna görə Ermənistan ərazisindən Azərbaycan torpaqlarını, mülki şəxsləri atəşə tuturlar və bizi cavab atəşinə təhrik edirlər”.

Gəncəyə, Tərtərə raket zərbələrinin endirilməsini Ermənistanın növbəti terror aktı adlandıran Prezident əminliklə vurğulayır ki, bu terror aktı Azərbaycan xalqının iradəsini qıra bilməz. Azərbaycan düşmənə qarşı daha böyük əzmlə, iradə ilə vuruşaraq öz torpaqlarını azad edəcək və bayrağını işğal edilmiş bütün ərazilərdə qaldıracaq.

Bu xain hücumlar zərrə qədər də bizi yolumuzdan döndərə bilməz. Ermənistanın məqsədi Azərbycanı dayandırmaqdır. Onlar zənn edirlər ki, bu xain zərbələr Azərbaycanı dayandıracaq: “Bizi heç kim dayandıra bilməz. Çünki biz haqq yolundayıq, bu yolu davam edirik və uğurla davam edirik. Bayrağımızı qaldırırıq, torpaqlarımızı azad edirik və sona qədər bu yolu gedəcəyik”.

❖❖❖

Müdafiə Nazirliyi işğaldan azad edilən Hadrut qəsəbəsinin videogörüntülərini yayır.

Qəsəbədəki ən yüksək zirvədə bayrağımız dalğalanır.

Xatırladaq ki, Xocavəndin Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad olundu. Hadrutun azad edilməsi Vətən müharibəsində dönüş nöqtəsi idi. Hadrut çox strateji əhəmiyyətə malik, həm də ordumuzun növbəti əməliyyatları yerinə yetirməsi üçün əsas açar yerlərdən biriydi. Azərbaycan Ordusu hərb tarixinin ən çətin əməliyyatla-



rından birini - sızma və dərinlikdə əməliyyatlarını icra edərək Hadrutu işğaldan azad etdi. Bu, Füzuli rayonunda yerləşən düşmən qüvvələrinin, onlara gələn təchizat və digər əlaqə yollarının kəsilməsində və mühüm strateji nöqtələrin ələ keçirilməsində önəmli rol oynadı. Hadrut azad ediləndən sonra demək olar ki, Ermənistan ordusunda çox sürətli şəkildə pərakəndəlik və fərarilik başladı, döyüş ruhu sındı. Separatçı rejimin başçısı Araik Harutyunyan kiçik qüvvələr yığaraq Hadrutun yenidən zəbt olunması üçün hücumlar təşkil edirdi. Ancaq onlar heç bir effekt vermədi. Azərbaycan Ordusu öz qalibiyyətli yürüşünü davam etdirdi və düşməni digər rayon, şəhər və yaşayış məntəqələrimizdən də qovub çıxardı.

***Rəşad BAXŞƏLİYEV, “Azərbaycan”***

## Ermənistan: məğlubiyyətin xronikası

❖❖❖

Cəbhədəki uğursuzluq Ermənistan cəmiyyətinin əsaslarını getdikcə daha dərindən sarsıdır. Hətta bu ölkənin KİV-i baş naziri N.Paşinyanı ordu ilə bağlı şoular düzəltməkdə ittiham edir. "4rd.am" saytı bu məsələyə nəzər salaraq onu da yazır ki, bir müddət əvvəl hərbi xidmətə könüllü yazılan Paşinyanın oğlu nədənsə döyüş bölgəsinə gəlməyib. Bildirilir ki, Aşot Paşinyanın könüllü şəkildə hərbi xidmətə yazılmasının siyasi şou olduğu öz təsdiqini tapmaqdadır.



Məsələ bundadır ki, populist Paşinyan bu yolla sürətlə azalmaqda olan nüfuzunu qorumağa çalışır. O, ölkəni sosial, siyasi və iqtisadi problemlərdən çıxara bilmədiyi üçün bu cür yolla öz reytinqini saxlamaq istəyir. Halbuki Ermənistan vətəndaşlarının Azərbaycan ərazisində hərbi xidmətə göndərilməsi bu ölkənin təcavüzkar dövlət olmasının açıq göstəricisidir.

❖❖❖

"4rd.am"saytı daha sonra yazır ki, baş nazirin oğlu deyildiyi kimi hərbi xidmətə könüllü yazılsa da, bir müddət vaxtını Xankəndidə keçirib və sonra Yerevana qaçıb. Məqalədə Aşot Paşinyanın vaxtilə Qarabağda təhlükəsiz və komfortlu şəraitdə hərbi xidmət etdiyi, həmçinin onun burada vaxtını boş keçirmədiyi də xatırladılır. Bildirilir ki, o, hərbi xidmətdən başqa hər şeylə məşğul idi: "Hətta qudurmuşluğun dərəcəsinə baxın ki, evinin mühafizəsi üçün hərbi bölük ayrılmışdı. Burada onun özünə münasib bildiyi yoldaşları ilə bərabər gecə əyləncələrindən tutmuş qumar oyunlarına kimi hər şey təşkil olunurdu.

Aşot Paşinyan üçün Yerevandan böyük miqdarda pullar da göndərilirdi. Hərbi xidmətdə olarkən bu pulun onun nəyinə lazım olması barədə isə heç bir izahat verilmirdi. Görünən budur ki, hərbi xidmət baş nazirin oğlu üçün pis keçmirmiş. Necə ki, atası bütün qanunsuzluqlara gedərək baş nazir postunda vaxtını boş keçirmir, kreslosunda yerini daha da möhkəmləndirməyə çalışır. Ancaq gedişat göstərir ki, Paşinyan bu müharibədə uduzub və yaxın gələcəkdə hakimiyyətini itirəcək. Bu, heç kimdə şübhə doğurmur".

❖❖❖

Ermənistanın "Haynews.am" saytı yazır ki, son döyüşlərdə Azərbaycan tərəfindən "Dağlıq Qarabağ müdafiə ordusu"nun bir bölüyü tam məhv edilib. 100-ə yaxın hərbçinin taleyi isə məlum deyil. Döyüş əməliyyatları zamanı ərazidəki alayın hüquqşünası da öldürülüb. Azərbaycan Ordusunun həmlələrindən sarsılan ermənilərin hərbi hissələrindən birinin hərbi qulluqçuları isə tam heyətdə fərarilik edib.

Sayt yazır: "Şahidlərdən biri bizə bildirdi ki, vurulmuş maşınlarda 30-dan çox hərbçi ölüb. Yerli hospitaldan daxil olmuş 8 yaralı haqqında bildirdilər ki, 5-nin vəziyyəti ağırdır. Hadrut rayonu istiqamətində gedən döyüşlərdə isə 100 nəfərdən çox itki verilib".

Məqalədə qeyd olunur ki, birinci Qarabağ müharibəsində iştirak edən yaşlı nəsil orduda xidmət etməyə çağrılıb. Yaşlılarla yanaşı, qadınların da orduya cəlb edilməsinə başlanılıb.

❖❖❖

"Joxovurd" qəzetinin müxbirləri Xankəndidə hökm sürən vəziyyət barədə reportaj hazırlayıblar. Reportajda deyilir ki, şəhər tamamilə boşdur, insanların böyük əksəriyyəti Yerevana və digər şəhərlərə üz tutub. Qalanlar isə günlərini zirzəmilərdə gizlənməklə keçirirlər:"Şəhərin küçələrində heç bir hərbi texnika gözə dəymir. Ancaq Şuşaya gedən yolda çoxlu mülki maşınlar gözə dəyir".



Daha əvvəl sosial şəbəkələrdə yayılan məlumatlardan məlum olurdu ki, erməni hərbçilər işğal altındakı ərazilərdən kütləvi şəkildə qaçan mülki şəxsləri geri qaytarmağa çalışırlar. Dağlıq Qarabağdakı qondarma rejimin "hökuməti" də təsdiq edir ki, işğal altında olan rayonlardan sakinlər tamamilə evakuasiya olunub, Xankəndidə isə qalan azsaylı sakinlər zirzəmilərdə gizlənir.

❖❖❖

Rusiyanın Teleqram kanalı "Mash" tərəfindən yayılan kadrlardan da Xankəndinin tamamilə boşaldığı diqqətə çatdırılır. Jurnalist Sergey Titov bildirib ki, axşam saat 17:00 olmasına baxmayaraq, şəhərdə nəyisə soruşmaq və ya nədənsə danışmaq üçün heç kəs tapılmadı: "Telefon bağlantısı, internet yoxdur, zəng etmək çox çətindi. Hətta işıqforlar da işləmir. Rəsmi olaraq telefon üçün sim kart alqı-satqısı qadağandır. İnterneti olan yeganə yerlər jurnalistlərin toplaşdığı hotel və ya mətbuat mərkəzidir".

"İravnuk" qəzetinin müxbiri Qarabağdan olan erməni jurnalist Şaqen Nazaryandan cəbhə xəttində nə baş verdiyi haqda soruşub. Ş.Nazaryan bildirib: "Mən özüm hazırda Yerevandayam. Ancaq bütün qohumlarım, o cümlədən anam Dağlıq Qarabağdadır. Onunla danışmışam, deyir ki, səfərbərlik üçün kişi tapılmır. Xankəndi və Şuşa bomboşdur. Füzuli, Ağdam istiqamətində şiddətli döyüşlər gedir. Orada mənim əmim oğlanları və bacım yaşayırdılar, anam onları oradan çıxarıb Şuşaya aparmağa çalışır. Əgər situasiya dəyişməsə, ola bilsin uşaqları dəhlizlə Yerevan tərəfə çıxarsınlar. Xankəndidə isə həyat demək olar ki, ölüb".

❖❖❖

"İravnuk" qəzeti diqqəti ona da yönəldir ki, N.Paşinyan baş nazir postunu tutduqdan sonra etdiyi kadr dəyişiklikləri orduda vəziyyətin müsbətə doğru dəyişməsinə gətirib çıxarmayıb. Döyüş və qeyri-döyüş şəraitində itkilər əvvəlki kimi davam edib. Son döyüşlər isə ordunun ərzaqla təminatı baxımından ciddi problemlər yaradıb. Buna görə rəhbərlik orduda müqavilə əsasında xidmət edən hərbi qulluqçulara verilən ərzağı kəsməyə başlayıb.

Adının çəkilməsini istəməyən vəzifəli şəxs erməni mediasına bildirib ki, artıq bir müddətdir müqavilə əsasında muzdla işləyən hərbi qulluqçular hərbi hissələrin hesabına yemək yeyə bilmirlər. Onların aclıq çəkməmək üçün özləri ilə kənardan qida alıb gətirməkdən başqa çıxış yolları qalmayıb: "Böyük uğursuzluqla üz-üzəyik. Bu gedişlə əsgərləri aclıq öldürəcək. İçməyə suyu belə tapmaqda çətinlik çəkirlər. Artıq əsgərlər arasında xəstəlik tapanlar da var".



Mənbə onu da deyib ki, hazırda orduda vəziyyət olduqca acınacaqlı hal alıb. Belə ki, baş nazir əsgərlərin evdən göndərilən müxtəlif məhsullarla təchiz edilməsinə qadağa qoyur, əvəzində isə müqaviləli hərbçilərə verilən təminatlar azaldılır, onlara yalnız öz hesablarına ərzaq almaları tapşırılır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# REGİONLAR



## Ağdamda 18 min 943 hektarda şum qaldırılıb

Ağdam rayonunun iqtisadiyyatında aparıcı yer tutan kənd təsərrüfatında payız işləri davam edir.

Rayon Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, cari ildə 7 min 792,5 hektar buğda, 2 min 134 hektar arpa sahəsindən ümumilikdə 40 min 10 ton məhsul toplanıb. Hər hektara məhsuldarlıq 40,3 sentner təşkil edib.

Yanvar-sentyabr aylarında 3 min 368 hektar tərəvəz, bostan məhsulları, kökümeyvəlilər və köküyumrular sahəsinin 3 min 306 hektarında yığım aparılıb, 89 min 129 ton məhsul əldə edilib. Bununla yanaşı, rayon üzrə 1010,2 ton meyvə, 218,2 ton üzüm istehsal olunub.

Rayonun fermerləri cari ilin payızlıq əkinləri üçün 18 min 943 hektar sahədə şum qaldırıb, 1520 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər əkiblər. Payızlıq əkinlərin 892 hektarı yaşıl yem, 158 hektarı dən üçün buğda, 470 hektarı isə dən üçün arpadır. Hazırda rayonda pambıq yığımı və taxıl səpini davam edir.

## Yevlax Pilot Aqroparkın rezidenti ilk dəfə Qırğızıstana ting məhsulları ixrac edəcək

Yevlax Pilot Aqroparkın rezidenti "İSFA" MMC ilk dəfə olaraq Qırğızıstana ting məhsulları ixrac edəcək.

İqtisadi Zonaların İnkişafı Agentliyindən (İZİA) bildirilib ki, bu ilin oktyabrında ixraca dair imzalanan müqaviləyə əsasən, şirkət tərəfindən Qırğızıstana ümumilikdə 40 min gilas, badam və nektarin tinglərinin göndərilməsi planlaşdırılır. Növbəti mərhələdə isə Gürcüstana 100 min qoz tinginin, Rusiyaya isə 150 min ədəd alma, gilas və nektarin tinglərinin ixracı nəzərdə tutulur.

Qeyd edək ki, Yevlax Pilot Aqroparkın ilk rezidenti kimi qeydiyyata alınmış "İSFA" MMC tərəfindən aqroparkın ərazisində meyvə bağları, tinglik salınıb və bu istiqamətdə işlər görülür. Belə ki, şirkətin əkin sahəsinin 40 hektarını meyvə bağları, 10 hektarını isə tingçilik təsərrüfatı təşkil edəcək. Artıq 20 hektarlıq parselin 4 hektarında tezyetişən gilas, 2 hektarında ərik, 6 hektarında nektarin və şaftalı, 1 hektarında isə alça ağacları əkilib. 5 hektar ərazidə isə 500 min tingin yetişdirilməsi üçün 500 min calaqaltı əkilib və tam avtomatik suvarma sistemi quraşdırılıb. "İSFA" MMC-nin aqroparkda yerləşən təsərrüfatında ilkin mərhələdə 8 nəfər daimi, 30 nəfər isə mövsümi işlə təmin edilib.

## GDU-də xaricdə təhsil seminarı keçirilib

Gənclərin İnkişafı və Karyera Mərkəzinin Gəncə nümayəndəliyi və "Barattson" Təhsil Mərkəzinin birgə təşkilatçılığı, Gəncə Dövlət Universitetinin dəstəyi ilə "İELTS" master-klası və xaricdə təhsil seminarı keçirilib.

Tədbirdə universitetin humanitar məsələlər üzrə prorektoru, dosent Gülsüm Fətəliyeva, "Barattson" Təhsil Mərkəzinin əməkdaşları Şahmar Həsənbəyli, Ülviyyə Əsgərzadə və xaricdə təhsil üzrə ekspert İsmayıl Qədimli iştirak ediblər.

Çıxış edən Gülsüm Fətəliyeva tədbir haqqında qısa məlumat verərək, gənclərin şəxsi və peşəkar sahədə inkişafına təkan verən "İELTS" layihəsindən bəhrələnməyi tövsiyə edib, tələbələrə imtahan sertifikatını əldə etməyi arzulayıb.

Bildirilib ki, "İELTS" Beynəlxalq İngilis Dili İmtahanıdır, ana dili ingilis dili olmayan tələbələrdən xarici universitetlərə qəbul olmaq üçün tələb olunan imtahan nəticəsidir. İngilis dili səviyyəsini ölçən bu test dünyada minlərlə universitet və təhsil qurumları tərəfindən tanınır.

*Reportaj*

## Yaxşı iş üz ağardır

### Biləsuvarlı fermerlərin aylardan bəri çəkdikləri zəhmət bəhrəsini verir

**O, pambıqyığan maşının arxasınca 20-30 metr getdikdən sonra dayanıb əvvəlcə ətrafa, sonra cərgələrdəki kollara baxır. Kolların üstündə 5-6 hələ açılmamış qoza sayır. Üzündə təbəssüm görünür. Öz-özünə: "Şükür sənə, İlahi, zəhmətimiz hədər getməyib, ikinci yığımda da xeyli məhsul əldə olunacaq". Maşının girmədiyi cərgəyə keçib açılmış pambıq lopasını götürür, bir dilimindəki çiyid dənələrini saymağa başlayır. Hər dilimdə 10-11 çiyid olması onun sevincini daha da artırır. Çünki bu, yüksək məhsuldarlıq deməkdir.**



Pambıqyığan maşının bunkeri səhər saat 10-a kimi iki dəfə dolub-boşalmış, bir qoşa lafet tədarük məntəqəsinə yola salınmışdır. Üçüncü bunker digər qoşa lafetin birinə boşaldılarkən fermer Bəhmən Kazımov onlara yaxınlaşan "Niva" və onun da ardınca "Nissan" markalı maşınları görür. Barmağını dişləyir: "Yəqin, bu, Musa müəllim olacaq. Becərmə vaxtı sahəmdə olarkən lazımi köməkliklərini edib demişdi ki, yığım zamanı hökmən gələcəyəm, 55 sentner hədəfinə çatıb-çatmadığını görmək üçün. Çox güman ki, bu gün pambıq yığımı haqda məlumatı ona "P-Aqro" Biləsuvar filialının direktoru Şakir Soltanov deyib". Bəhmən iti addımlarla dayandığı yerdən maşınlara tərəf gedir. "Niva" və "Nissan" lafetlərin yanında dayanır. Bəhmən və buradakı adamlar "P-Aqro" MMC-nin baş aqronomu Musa Hüseynovu və onunla tarlaya gələn filialın baş aqronomu Mehman Mirzəyevi qarşılayıb salamlaşır, hal-əhval tuturlar. M. Hüseynov gülə-gülə:

- Hə, Bəhmən, necəsən, işlərin necə gedir? Mən vədimə əməl edib gəldim. İndi baxaq görək sən vədinə necə əməl edirsən.

Kiçik zarafatdan sonra onlar sahədəki kolları nəzərdən keçirir, pambıqyığan maşının sahəni necə yığması ilə maraqlanırlar. "P-Aqro" şirkətinin baş aqronomu üzünü Bəhmən Kazımova tutaraq:

- Atalar düz deyib, qardaş, çəkilən zəhmət itmir. Sağ olun, yaxşı işləyib, yaxşı məhsul yetişdirmisiniz. Sizin kimi fermerlərin işini görəndə adamın ürəyi açılır. Görürəm, vədinə əməl edəcəksən. İnşallah, bəlkə, məhsulun hər hektardan 55 sentnerdən də çox olacaq.

Fermer B. Kazımov təvazökar halda:

- "P-Aqro" şirkətinin, sizin rayondakı filialınızın rəhbərliyinin, mütəxəssislərin köməyi, diqqət və qayğısı olmasaydı, belə pambıq yetişdirə bilməzdik. Şumdan tutmuş bu günə kimi filialın işçiləri bizim yanımızda olmuşlar, - deyir. Hər bir fermerin sahəsini onlar özlərinki bilirlər. Bizim üçün nə lazımdırsa, hamısını ediblər. Pambıq körpə uşaq kimi şeydir. Gərək nəzərini ondan çəkməyəsən. Aqrotexniki tədbirləri vaxtlı-vaxtında həyata keçirəsən. Bu mənada əkin, becərmə işlərini vaxtında görmüşük. Kultivasiya, yemləmə, dərmanlama, ucvurma, habelə digər işləri vaxtında görməsəydik, bu cür məhsul yetişdirə bilməzdik. Əkinçilikdən az-çox başı çıxan adam kimi fermerlərə, torpaq mülkiyyətçilərinə məsləhət görürəm ki, toxumu əkərkən ammofos gübrəsindən istifadə etsinlər. Faydasını özləri görəcəklər. Su sarıdan bir az korluq çəkdik. Kifayət qədər suvarma apara bilsəydik, məhsulumuz da daha artıq olardı. Neyləmək olar, görünür, bu da təbiətin bir sınağıdır. Lakin belə çətin hallarda hər kəs vicdanla hərəkət etməyi özünə borc bilməlidir. Camaat su birliklərinin ədalətsiz bölgüsündən, işə məsuliyyətsiz münasibətindən bu gün də şikayətçidir. Birini yandırıb birini qandırmaq heç bir qayda-qanuna, dinə-imana sığmır. Nə isə, bunlar hamısı arxada qalıb. Yaxşı adamları, yaxşı əməlləri də heç vaxt unutmamalıyıq. Əkində, becərmə zamanı hazırda yanımda dayanan bu insanların - traktorçu Vilayət Nəsibovun və ya sahə aqronomu Etibar Əmənovun yaxşılıqlarını necə unutmaq olar?! Ömrünün 42 ilini traktorçuluq peşəsinə sərf edən V. Nəsibov vicdanlı, əqidəli adamdır. Öz işini yaxşı bilən mexanizatordur. Əkindən tutmuş becərmənin son gününə qədər mənimlə hər gün sahədə olub. Kultivasiya, yemləmə, dərmansəpmə, ucvurma və digər aqrotexniki tədbirlərin həyata keçirilməsində onun əməyi böyükdür. Bunların nəticəsidir ki, maşallah, bol məhsul yetişdirmişik. Onu da deyim ki, yığılan pambığı məntəqəyə Vilayət daşıyır.

Bunkeri dolmuş "mavi gəmi" sahədən çıxıb lafetin dayandığı meydançaya yan alır. Kombaynçı Xalid Lətifov dolu bunkeri ustalıqla lafetə boşaldır. Fermer B. Kazımov mobil telefonunu cibindən çıxarıb saata baxır:

- Saat 1-ə 5 dəqiqə qalıb, nahar vaxtıdır, - deyir, - işçiləri, xüsusilə mexanizatorları ac saxlamaq günahdır.

Sonra üzünü "P-Aqro"nun baş aqronomu Musa Hüseynova tutaraq:

- Musa müəllim, elə bilirəm ki, siz də etiraz etməzsiniz, - deyir.

Hamı birlikdə sahənin kənarında yeni tikilmiş evin arxasına yığışır. Burada səliqəli şəkildə stollar və stullar qoyulmuşdur. Süfrəyə payız nemətləri olan nar, alma, armud, üzüm qoyulmuşdur. Ev sahibinin təklifi ilə hamı əyləşir. Bir neçə dəqiqədən sonra süfrəyə çay gəlir. Şərq tərəfdən əsən xəfif meh ruha, vücuda dinclik gətirir. Fermer B.Kazımov bu evin oğluna məxsus olduğunu, öz evinin isə bir az kənarda yerləşdiyini söyləyir. Həyətdə bağlanan mal-qara əsl kənd mənzərəsi yaradır.

Rayon mərkəzindən 18-20 kilometr uzaqda yerləşən kəndin yolunun bir hissəsi hələ də asfaltlanmayıb. Kəndin adı 90-cı illərədək Əmənkənd olduğu halda, dəyişdirilərək Amankənd edilib. Deyilənlərə görə, kəndin əsasını Əmən adlı bir kişi qoyubdur. Belə olduğu halda bu addəyişməsinin mənası nədir? "Aman" nə yenilikdir, nə deməkdir? Təəssüf ki, təkcə Biləsuvarda deyil, başqa rayonlarda da belə mənasız "addəyişmə"lərə, gərəksiz düzəlişlərə yol verilir.

Aqronom M.Mirzəyevin telefonu zəng çalır. Kənara çəkilib danışır. Yerinə qayıdaraq bildirir ki, filialın direktoru Ş.Soltanovdur. İşlərin necə getməsi ilə maraqlanır. Deyir ki, İkinci Qarabağ müharibəsi şəhidi polkovnik-leytenant Orxan Əkbərovun anım günü ilə əlaqədar keçirilən tədbirdədir. Mərasim başa çatdıqdan sonra bura gələcək.

Çaydan sonra süfrəyə yemək gətirilir. Sən demə, fermer B. Kazımov hər il məhsul yığımı zamanı bir toğlu kəsib işçiləri qonaq edir. Bu dəfə də qoyduğu ənənəni pozmayıb. Hər kəs toğlu ətindən hazırlanmış sous və kababdan dadır, fermerə, ailə üzvlərinə sağlamlıq, bol məhsul, ruzi-bərəkət arzulayır.

Fermer B.Kazımov Biləsuvarda tanınmış pambıqçılardandır. Sovet quruluşu dağılana kimi kəndlərindəki "Komsomol" kolxozunda işləyib. Dövran dəyişəndən sonra tərəddüd etmədən yenə sadə əməklə məşğul olub, pambıq əkib-becərib. Ailəsini halal zəhməti ilə saxlayıb, uşaqlarını boya-başa çatdırıb. Ailə üzvləri də həmişə onun yanındadırlar. Əkdiyi sahəni becərmək üçün dağa-daşa düşmür, onlar köməyinə çatırlar.

"Yaxşı iş üz ağardır", - deyiblər. B.Kazımov yaxşı işləyərək yaxşı qazanc əldə edib ailəsini firavan dolandırır. Bununla yanaşı, strateji əhəmiyyətli pambıq - "ağ qızıl" yetişdirir. Pambıqdan isə 200 adda müxtəlif məmulatlar alınır. Pambıq eyni zamanda qeyri-neft sektoruna daxil olan məhsul kimi dünya bazarında yaxşı qiymətə satılaraq respublikamıza valyuta gətirir. Deməli, hər bir fermer ölkəmizin iqtisadi qüdrətinin yüksəlməsində bilavasitə yaxından iştirak edir. Cari ildə xam pambığın alış qiymətində olan artım fermerləri, torpaq mülkiyyətçilərini sevindirir. Onlar bunun davamının olacağına ümid bəsləyirlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## İlin sonuna çox qalmayıb - hesabat zamanı yaxınlaşır

**Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin uğurlu icrası ölkəmizin bütün bölgələri kimi, Goranboy rayonunun da inkişafına böyük təkan vermişdir. Həmin proqramlar və digər sənədlər çərçivəsində aqrar sahənin inkişafına göstərilən diqqət, verilən dəstək rayonda kənd təsərrüfatı məhsulları istehsalının artmasına səbəb olmuşdur.**



Goranboyun da iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Təkcə ötən il dövlət tərəfindən fermerlərə verilən subsidiya və texnika, eləcə də bir çox güzəştlər nəticəsində rayon üzrə istehsal olunan kənd təsərrüfatı məhsullarının həcmi 8,1 faiz artmışdır. İstehsal olunan kənd təsərrüfatı məhsullarının 48 milyon 459 min manatlığı heyvandarlıq, 76 milyon 435,4 min manatlığı bitkiçilik sahələrinin payına düşmüşdür. Göründüyü kimi, bitkiçilik sahəsində artım daha çox olmuşdur. Xüsusilə taxıl, tərəvəz, bostan bitkiləri, eləcə də yem bitkiləri istehsalı əvvəlki ilə nisbətən xeyli artmışdır. Artım həmçinin pambıq, şəkər çuğunduru, tütün, günəbaxan və lavanda kimi bitkilər istehsalında da qeyd olunmuşdur.

Rayonda pambıqçılıq və tütünçülük sürətlə inkişaf edir. Hazırda 2526,2 hektarda əkilmiş pambıq yığılır. Tütün yığımının da qızğın vaxtıdır. Goranboyda pambıqçılıqla, əsasən, "MKT İstehsal Kommersiya", "Azərpambıq" və "Goran-Cotton" MMC-lər məşğul olur. Tütün isə rayonun 5 kəndində - Qarqucaq, Zeyvə, Şəfəq, Yenikənd və Qaraçinar kəndlərində ümumilikdə 8 hektar sahədə becərilir.

Bunlarla yanaşı, baramaçılığın inkişafı üçün güclü yem bazası yaradılır. Yalnız cari il 2600 yeni tut tingi əkilmişdir. Bununla bağlarda tut ağaclarının sayı 33600-ə çatmışdır. Bu mövsüm rayon üzrə 142 qutu tut ipəkqurdundan 6 ton barama istehsal olunmuşdur.

Hazırda rayonda gələn ilin məhsulu üçün gərgin iş gedir. Bu günədək 25068,6 hektar sahədə şum aparılmışdır. Artıq 1455 hektarda dən üçün arpa səpilmişdir. Taxıl səpini davam edir. Növbəti mərhələdə buğda səpininə başlanılacaq. Səpin işləri üçün texnika, eləcə də toxum və gübrə təminatı yüksək səviyyədədir.

Cari ildə rayon heyvandarları uğurlu göstəricilərə nail olurlar. İndiyədək diri çəkidə 3095,2 ton ət, 31018,1 ton süd, 20,5 milyon ədəd yumurta, 280,6 ton yun istehsal olunmuşdur ki, bu da ötən dövrlə müqayisədə 1,5 faiz çoxdur. Yeri gəlmişkən qeyd edək ki, Balakürd, Muzdurlar və Xınalı kəndlərində ixtisaslaşmış iribaşlı heyvandarlıq kompleksləri fəaliyyət göstərir. Həmin təsərrüfatların qazanılan uğurlarda xüsusi payı var.

Goranboyda 4,7 min hektar ərazini əhatə edən Aqropark da fəaliyyət göstərir. Burada 2 min hektar pivot və meyvə bağları üçün damcılama suvarma sistemləri quraşdırılmış, 11 kilometrlik avtomobil yolu, "Şəmkir Maşın" kanalından 12,1 kilometrlik su kəməri, 400 min kubmetrlik 2 su anbarı, 18 min tonluq taxıl anbarı, toxum-paketləmə zavodu, inzibati və yardımçı binalar inşa edilmişdir. Rayonda əkinçiliklə məşğul olan fermerlərin və istehsalçıların toxum təminatında Aqroparkın böyük payı var.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Qəbələdə sənaye məhsulları istehsalı 22,7 faiz artıb

Cari ilin yanvar-sentyabr aylarında Qəbələ rayonunda fəaliyyət göstərən sənaye müəssisələrində faktiki qiymətlərlə 86 milyon 414,6 min manatlıq məhsul istehsal olunub.

Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 6 milyon 11,8 min manat və ya 22,7 faiz çoxdur. İstehsal edilən sənaye məhsulunun 11,8 faizi dövlət, 88,2 faizi qeyri-dövlət sektorunun payına düşür. Bu barədə AZƏRTAC-a Qəbələ Rayon Statistika İdarəsindən məlumat verilib.

Bildirilib ki, Qəbələ rayonunun sənayesi əsasən, mədənçıxarma, qida məhsulları və tikinti materiallarının istehsalı, elektrik enerjisi və qazın bölüşdürülməsi, təchizatı, suyun təmizlənməsi və paylanması, tullantıların təmizlənməsi və emalı sahələrini əhatə edir. Müddət ərzində rayonda istehsal olunan sənaye məhsulunun 84,9 faizi emal sektorunun payına düşüb.

Cari ilin yanvar-sentyabr aylarında rayonda 10 milyon 382,7 min manatlıq sənaye məhsulu ixrac olunub.

## Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahan qaydalarında dəyişiklik edilib

Nazirlər Kabinetinin 2022-ci il 4 oktyabr tarixli 380 nömrəli qərarı ilə aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanları asanlaşdırılıb.

Qaydalara edilən dəyişikliklərə əsasən, aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanı iki deyil, bir mərhələdə keçiriləcək. İndiyədək imtahanlarda yalnız 11 ixtisas üzrə peşə sahibi iştirak edə bilirdisə, yeni qərarla bu siyahı genişləndirilərək 71-ə çatdırılıb.

Yeni dəyişikliklərə əsasən, ali, orta ixtisas təhsil pilləsi ilə yanaşı, 5 ildən az olmayaraq iş təcrübəsi olan peşə təhsilli şəxslər də imtahanda iştirak etmək hüququ əldə edəcəklər. İmtahanda iştirak etmək istəyən namizədlər Aqrar Sığorta Fondunda keçirilən xüsusi təlimlərə cəlb olunurlar. Təlimin başlanmasına azı 1 ay qalmış fondun rəsmi internet saytında və ya mətbu orqanda bu barədə elan verilir.



Təlim prosesi ərzində təsərrüfat sahələrində praktik təcrübə keçirilir. Təlimi uğurla başa vurmuş şəxslərin siyahısı Aqrar Sığorta Fondu tərəfindən Dövlət İmtahan Mərkəzinə göndərilir. Mərkəz sənəd qəbulu elan etdikdən sonra imtahan keçirilir və imtahan nəticəsində aqrar sığorta fəaliyyəti üzrə sertifikatlar Dövlət İmtahan Mərkəzi tərəfindən təqdim olunur.

# Haydı, "Qarabağ"!




## Bu gün Ağdam klubu səfərdə məğlub etdiyi Yunanıstan "Olimpiakos"unu qəbul edir

**UEFA Avropa Liqası**
**G qrupu, 4-cü tur**

**20:45 "QARABAĞ" (Azərbaycan) - "Olimpiakos" (Yunanıstan)**
***Baş hakim:* Kreyq Pauson (İngiltərə)**
**Bakı, Tofiq Bəhramov adına Respublika Stadionu**

**Bugünkü qarşılaşmaya maraq həddindən artıq böyükdür. Matç üçün satışa çıxarılan biletlər bir saat içərisində tükənib.**

Ümumiyyətlə, Ağdam klubunun nümayiş etdirdiyi futbol azarkeşlərin marağını çox artırıb.

Keçək matçın təhlilinə. Komandalar arasında qrupun ilk oyununda "Qarabağ" səfərdə 3:0 hesabı ilə qalib gəlmişdi.

Bəs ev oyununda "Qarabağ"ı nə kimi sürprizlər gözləyə bilər?

Yunanlar ilk oyunda buraxdıqları səhvləri təhlil edib başqa oyun planı seçə bilərlər. Ona görə də, ağdamlılar ilk oyundakı qələbə eyforiyasına aldanmayıb çox diqqətli olmalıdırlar. "Qarabağ" meydançada mövqe seçimini düzgün edib, intizamı pozmamamlıdır.

"Olimpiakos" ilk oyunda yerlə və qısa ötürmələrə üstünlük verən oyun planı seçmişdi. Ağdam klubu isə rəqibə pressinq tətbiq edərək 3-cü zonadan topa çıxartmağına imkan vermədi. Bununla yanaşı, həmin təzyiq Yunanıstan komandasında xətlərarası əlaqəni pozdu. Nəticədə "Qarabağ" rəqibin səhvindən yararlanaraq fərdi ustalıqlar sayəsində qarşılaşmada qollar vuraraq qalib gəldi.

Pirey təmsilçisi bu matçda fərqli oyun planı seçə bilər. Yəni qonaqların birinci zonadan üçüncü zonaya keçid oyununu uzun ötürmələrlə etməyə cəhd göstərmək əmsalı kifayət qədər yüksəkdir.

Çox güman ki, 4-3-3 oyun formatı ilə meydana çıxacağı gözlənilən "Qarabağ" rəqibin cinahlardan etdiyi sürətli keçid oyunlarında və standart vəziyyətlərdə çox diqqətli olmalıdır. "Olimpiakos"da cinahlarda oynayan futbolçuların çox sürətli keçidləri fonunda komandamız müdafiə xəttinə daha çox diqqət yetirməlidir. "Qarabağ"ın sağ və sol cinah müdafiəçiləri rəqibin hücumları zamanı mərkəzə doğru çəkilərək boş zona buraxmamalıdır.

Qeyd edək ki, "Olimpiakos"da Yussef Əl-Arabinin olmaması və digər forvard Sedrik Bakambunun avrokubok qarşılaşmaları üçün sifariş olunmaması böyük üstünlükdür. Çünki 2-ci və 3-cü zonaya keçid oyununda daha sürətli və texnikalı olan futbolçulara qarşı mübarizə aparmaq çətin olacaqdı. Amma bütün bunlara baxmayaraq, hücumda Abubakar Kamara kimi təhlükəli hücumçular da var.

Qonaqların oyunçu paylaşımı, mövqe seçimi və sığortalamasında ciddi problemləri var. Xüsusilə komandada sağ və sol cinah müdafiəçiləri ilə mərkəz müdafiəçiləri arasında boş zonanı blok etməkdə çətinliklərlə üzləşirlər. İlk matçda da gördük ki, komanda müdafiə olunanda 5 nəfər mərkəzdə, 4 nəfər isə yarımmüdafiədə yer alır. Rəqib hücum edərkən topun olduğu zonaya 3 oyunçu ilə təzyiq etməyə çalışır. Nəticədə müdafiənin cinahlarında çox ciddi boşluqlar yaranır.

Pireydə Marko Yankoviçin yoxluğunda komandamızın heyətində Riçard Almeyda çox da çətinlik çəkmədi. Bu oyunda rəqib uzun ötürmələrə üstünlük verəcəyinə görə Yankoviçin bu keçid oyunlarında performansı daha çox olmalıdır. Bu ötürmələr fonunda Zubir, Ovusu və Kadiyə yaxşı fürsətlər yarana bilər.

"Olimpiakos"un üstünlüklərindən biri cinahlardan edilən hücumlar və anidən cərimə meydançası içərisinə edilən uzun ötürmələrdir. Burada isə müdafiəçilərimiz və qapıçımız topa çıxışlarda çox diqqətli olmalıdırlar. Qeyd edək ki, "Olimpiakos" hücuma qoşularkən geri dönən toplara sahib olmaqda çox çətinlik çəkir.

Bu arada "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov "Olimpiakos"la keçirəcəkləri matç barədə fikirlərini bölüşüb. O, görüşdən əvvəl təşkil olunan mətbuat konfransında oyuna hazır olduqlarını deyib. Bildirib ki, rəqibə düzgün yanaşmalıyıq: "Həddindən artıq istəklidirlər. Bu matça son şans kimi baxırlar. Qarşılaşmaya ciddi hazırlaşıblar. Yunanıstandakı 3:0 hesabı məni və futbolçularımı aldatmamalıdır. Orada səhvlərimiz də çox olub. Matça sonradan baxanda buna əmin oldum. Sabah yaxşı oyunlarımızdan birini keçirmək istəyirik".

Q.Qurbanov komandasının son oyunlarda qolu fasilədən sonra vurması haqda da danışıb: "Xüsusi səbəb deyə bilmərəm. Ümumən, hər bir rəqib bizə ilk hissədə daha ciddi müqavimət göstərir. İkinci yarıda ola bilsin, oyun intizamını qoruya bilmirlər. "Qəbələ" ilə matçda çox çətinlik çəkdik. Futbolda rast gəldiyimiz hallardandır. Bəzən oyunun gözəlliyi son dəqiqə qollarıdır. Əvvəllər elə olurdu ki, ilk hissədə qollar vururduq. İkinci hissədə qol sayı artanda daha inamlı oluruq. Bu, hazırlığın yüksək səviyyədə olduğunu göstərir. 90 dəqiqə nizam-intizamı qorumağa çalışırıq".

Q.Qurbanov qeyd edib ki, komandasının qalibiyyətləri onlardan gözlənti və tələbləri çoxaldır: "Bu, gərginlik və həyəcan yaradır. Məğlub olmaqdan qorxmuruq. Hər matçda oyunumuzu yaxşılaşdırmalıyıq. Bizə olan inamı itirməməyə çalışırıq. Bu, asan deyil. Meydanda tək biz olmuruq, qarşı tərəf düşünmədiyimiz şeylər hazırlayır. Gərginlik olur. Son vaxtlar, ümumiyyətlə, bunlara alışmışıq. Biz yenə də işimizi davam etdiririk. Qələbə üçün ən yaxşısını etməyə çalışırıq. Azarkeşlərimizin inamını qazanmağa çalışırıq".

Bakıda Ağdam klubunun növbəti zəfərinə inanırıq.

Haydı, "Qarabağ"!

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**G qrupu**

| KOMANDALAR | O | T-F | X |
|---|---|---|---|
| "Frayburq" | 3 | 7-1 | 9 |
| "Qarabağ" | 3 | 7-2 | 6 |
| "Nant" | 3 | 2- 6 | 3 |
| "Olimpiakos" | 3 | 1-8 | 0 |


# OXUCULARIN NƏZƏRİNƏ!



***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

**balansında olan "Ordubad" gəmisi üçün MAN 6K45GFCA baş və MAN 6T23LH köməkçi mühərriklərin ehtiyat hissələrinin satınalınması məqsədilə**

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla, elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 2022-ci il oktyabrın 21-i saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***


# Bəzi bölgələrdə intensiv yağış yağacağı gözlənilir

Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 16-18°, gündüz 20-23° isti, Bakıda gecə 16-18°, gündüz 21-23° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 767 millimetr civə sütunu, nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın şərq rayonlarından başlayaraq bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı proqnozlaşdırılır. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-17°, gündüz 20-25° isti, dağlarda gecə 4-8°, gündüz 8-13° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 23-27° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-8°, gündüz 10-15° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 4-8°, gündüz 10-15° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 17-22° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi şərq rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 8-12°, gündüz 16-21° isti, dağlarda gecə 5-8°, gündüz 10-15° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şərq rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 13-17°, gündüz 20-25° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Dağlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-17°, gündüz 19-24° isti, dağlarda gecə 10-12°, gündüz 13-16° isti olacaq.








«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, bəstəkar

**RUHƏNGİZ QASIMOVANIN**

vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Bakı şəhəri Nizami Rayon Məhkəməsinin kollektivi məhkəmənin sədri vəzifəsini müvəqqəti icra edən Mətanət Hacıyevaya anası

**BƏSTİ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı akademik İsa Həbibbəyli Milli Məclisin deputatı Sabir Rüstəmxanlıya bacısı

**SƏMAYƏ RÜSTƏMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt şəhər 2 №-li Xəstəxananın Oftalmologiya şöbəsinin müdiri İradə Əliyeva Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt Şəhər Baş İdarəsinin rəisi general-mayor Natiq Qarayevə qayınanası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6505
Sifariş 2895
Qiyməti 40 qəpik